Xalqın qəzeti!

# Xalq qəzeti

№ 181 (30297) 25 avqust 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

**Bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur. Onlar bilirlər ki, biz xeyli güclüyük. Biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.**

# Azərbaycanın hədəfləri məlum, yolu aydındır

## Məqsədimiz ərazi bütövlüyümüzün təmin edilməsi, bərpa-quruculuq və hamı ilə səmərəli əməkdaşlıqdır



**Azərbaycan dövlətinin qarşıya qoyduğu hədəflər, əsas məqsədlərimiz və tutduğumuz yol haqqında qələmə almaq istədiyimiz sətirlərin əvvəlində ölkəmizin rəqabət məkanı deyil, əməkdaşlıq ünvanı kimi qəbul edilməsinin göstəricisi olan faktı yada salmağımız təsadüfi deyil. Çünki elə bu məqam da 1993-cü ilin yayından bəri Azərbaycanın əsas hədəflərindən biri olub.**

Ulu öndər Heydər Əliyev 1993-cü ilin yayında ölkədə siyasi hakimiyyətə qayıdandan sonra bəyan etmişdi ki, bizim qarşımızda duran əsas vəzifələr dövlət müstəqilliyimizin əbədiləşdirilməsi, ölkəmizin ərazi bütövlüyünün tam bərpa edilməsi, vətəndaşlarımızın sosial rifahının yaxşılaşdırılması, yaxın qonşularımız, Türkdilli dövlətlər, İslam dünyası, bütün ölkələr və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq etməkdən ibarətdir. Yəni bu məqsədlərin – hədəflərin heç birində kimisə qıcıqlandıracaq fakt yoxdur. Biz tam sivil siyasi kurs götürmüşdük və həmin kurs bizi uğurlardan-uğurlara doğru aparır.

Azərbaycanla eyni vaxtda dövlət müstəqilliyi qazanmış Ermənistan isə elə ilk günlərdən min illər boyu bu ərazidə mövcud olmuş, 1991-ci ildə isə BMT tərəfindən tanınmış Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış etmiş, terror, təxribat, separatçılıq və işğalçılıq kimi mənfur fəaliyyəti dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Əslində, bu fakt dünya dövlətlərinin və beynəlxalq təşkilatların Azərbaycanın ədalətli mövqeyini kiminləsə müqayisə etməsi üçün olduqca əhəmiyyətlidir.

*(ardı 3-cü səhifədə)*

# “Orda – Zəngəzurda mənim ürəyimin məzarı qalıb”...

**Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş Qərbi Azərbaycana Qayıdış Konsepsiyası bu əzəli və əbədi yurd yerimizdən olan minlərlə insanın xatirələrini dilə gətirdi, onların doğma yurd həsrəti ilə alışıb-yanan niskillərinə rahatlıq toxumu səpdi, həmin yurd yerlərinin havasını duymaq, suyundan içmək ümidi yaratdı. Bu böyük ümid, eyni zamanda, ilahi ədalətin təntənəsinə olan dərin inamın təzahürü kimi meydana çıxdı. İlahi ədalət isə özündə bir çox məqamları birləşdirir, doğma el-obaya təşnə könüllərə dinclik gətirir. Bu gün qərbi azərbaycanlılar ürəklərinə hakim kəsilmiş dinclik və əminlik hissinin təsiri ilə yaşayıb-yaradır, böyük qayıdışın yetişəcəyi anı səbirsizliklə gözləyirlər. Onlar, həmçinin, təmsil etdikləri sahələrdəki fəaliyyətləri ilə bu müqəddəs amal uğrundakı ideoloji mübarizəyə kömək göstərir, dəstəklərini əsirgəmir, mübarizələrinin haqqa söykəndiyini bütün varlıqları ilə dərk edirlər.**

Varlığına, həyat yoluna Qərbi Azərbaycan sevdası hakim kəsilmiş soydaşlarımızdan biri də odur – görkəmli yazıçı-dramaturq, şair-publisist, dövlət xadimi və ən nəhayət gözəl ziyalı Hidayət Orucov. “Xalq qəzeti” olaraq onun keçmiş sovet dövrünün populyar nəşrlərindən sayılan “Literaturnaya qazeta”-nın 3 sentyabr 1993-cü il tarixli sayında yayımlanmış müsahibəsini təqdim edirik. Hidayət müəllimin həmin müsahibədə bölüşdüyü fikirlər Zəngəzur, Göyçə sevgisini məxsusi çalarlarla zənginləşdirməklə yanaşı, tarixi həqiqətlərə də işıq salmaq baxımından son dərəcə əhəmiyyətlidir. Onu da bildirək ki, müsahibə Hidayət Orucovun müəllifi olduğu “Burdan min atlı keçdi” kitabından götürülüb.




*(ardı 9-cu səhifədə)*

# Paşinyanın rəngarəng “sülh yuxuları”

**Regional və beynəlxalq müstəvilərdə baş vurduğu bütün cəhdləri puça çıxdıqca, barışığa aparan yol gödəldikcə, İrəvan istər ikitərəfli sülh danışıqlarına, istərsə də Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiya prosesinə pəl vurmaqdan ötrü ən çirkin “siyasi üsullara” əl atmaqdan çəkinmir. Belə “üsullardan” birini dünən Nikol Paşinyan kabinetinin və nazirlərinin hüzurunda ərz elədi.**

Erməni mediası Hayastan baş nazirinin hökumətin həftəlik ənənəvi iclasında dediklərini tirajlamaqla məşğuldur. Bu dəfə iclasın ana mövzusu, Paşinyanın bəyan etdiyi əsas tezis kimi Ermənistanın Azərbaycana sülh sazişinin imzalanması ilə bağlı yeni təkliflər verdiyi önə çıxarılıb.



Ermənistanın baş naziri Nikol Paşinyan dünən hökumətin iclasında deyib: “Mən Ermənistanın sülh gündəliyinə sadiqliyini vurğulamaq istəyirəm. Biz Azərbaycan tərəfinə Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi ilə bağlı yeni təkliflərimizi göndərmişik”.

*(ardı 4-cü səhifədə)*




# Xalqın bir əsrlik salnaməsi

**(əvvəli qəzetin 23 avqust nömrəsində)**

“Kommunist”in 1941-1945-ci illərdəki fəaliyyəti xüsusi qeyd olunmalıdır. Azərbaycanın igid oğullarının müharibənin ilk günlərindən ön və arxa cəbhələrdə göstərdikləri misilsiz qəhrəmanlıqlar qəzetin yaradıcı kollektivini daha böyük əzmkarlıqla işləməyə ruhlandırmışdı. Jurnalistlərdən bəziləri könüllü olaraq ön cəbhəyə yola düşmüş, bəziləri isə döyüş xəttinə gedərək, qəzeti hərbçilərimizin hünəri, qəhrəmanlıqları barədə hadisə yerindən hazırlanmış reportajlar və oçerklərlə təmin edirdilər.

*(ardı 6-cı səhifədə)*

## Cüdo tariximizin ilk qadın dünya çempionu – Xədicə Qədəşova



**Qadın cüdoçumuz Xədicə Qədəşova Xorvatiyanın paytaxtı Zaqrebdə yeniyetmələr arasında dünya çempionatında qızıl medal qazanıb. 52 kiloqram çəki dərəcəsində fəxri kürsüyə qalxan idmançı Azərbaycan cüdo tarixinin ilk qadın dünya çempionu olub.**

O, final görüşündə Fransa təmsilçisi Alisya Pulanjı məğlub edərək bu titula sahib çıxıb.

*“Xalq qəzeti”*

# Priqojinin təyyarə qəzası

**İyunun 23-də “Vaqner” Özəl Hərbi Şirkətinin qiyamı olaraq qiymətləndirilmiş hadisədən sonra həmin qurumun rəhbəri Yevgeni Priqojinin, heç nə olmamış kimi, sərbəst buraxılması bir qədər təəccüblü idi. Necə ola bilərdi ki, dövlətə qəsd cəzasız qalsın? Axı, Priqojin, sözün əsil mənasında, Rusiyanın paytaxtı Moskvaya yürüş təşkil etmişdi.**



Çıxışları, sosial şəbəkə paylaşımları onu kultlaşdırmışdı, qəhrəmana çevirmişdi. Priqojin, sanki, İlahi ədalətin mücəssəməsi olmuşdu. İndi ilk baxışdan, elə düşünmək olar ki, avqustun 23-də baş vermiş müəmmalı təyyarə qəzası həmin kultu dağıtdı, ədaləti yerlə-yeksan etdi, qəhrəmanın isə axırına çıxdı. Əlbəttə, bu, ilk baxışdan gələnən qənaətdir. Məsələyə diqqətlə yanaşdıqda, ağla dövlətçilik naminə cəzasızlıq mühitinə yol verilməməsi gəlir. Dünya mediasına yol tapan fikirlərdə məsələ hətta bir qədər də sərt formada qoyulur: Rusiya Prezidenti Vladimir Putin Priqojini bağışlaya bilməzdi və bağışlamadı da. Ancaq başqa məqamlar da var.

*(ardı 8-ci səhifədə)*

# Yaponiya AES-in suyunu okeana axıdır

**Yaponiyanın Tokyo Electric Power (TEPCO) şirkəti “Fukusima-1” Atom Elektrik Stansiyasının suyunu okeana axıtmağa başlayıb. Proses canlı yayımda nümayiş olunub. Təmizlənmiş su sahildən bir kilometr məsafədə sualtı tunel vasitəsilə axıdılır. Gün ərzində 460 ton su buraxılacaq. Təmizlənmiş hər ton suya 1,2 min ton təmiz dəniz suyu qarışdırılır. İlk 17 gündə 8 tondan az su ötürüləcək. Tokio dünyanı narahat olmamağa çağırır, lakin region ölkələri artıq etiraz səslərini ucaldırlar.**



*(ardı 11-ci səhifədə)*

## Alen Simonyan kefindən qalmır

Səhifə ⇨ 4

## Maqnus Karlsen Dünya kubokunun sahibi oldu

Səhifə ⇨ 11

# Ukraynanın Prezidenti Zati-aliləri cənab Volodimir Zelenskiyə

**Hörmətli cənab Prezident,**

Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Ukrayna arasında münasibətlərin hazırkı yüksək səviyyəsi xalqlarımızın tarixən təşəkkül tapmış sıx dostluq və qarşılıqlı hörmət ənənələrindən irəli gəlir. Bu iradədən qaynaqlanan və möhkəm təməllər üzərində qurulan dövlətlərarası əlaqələrimizin birgə səylərimizlə dinamik inkişaf edərək yeni mərhələyə yüksəlməsi məmnunluq doğurur. Azərbaycan-Ukrayna əlaqələrinin keçən ilin yanvarında Ukraynaya səfərim zamanı imzaladığımız Birgə Bəyannamədə öz əksini tapmış məram və məqsədlərə uyğun olaraq bundan sonra da inkişaf edəcəyinə inanıram.

Cari ilin iyununda Kişineuda Sizinlə görüşümüzü, Azərbaycan-Ukrayna ikitərəfli əlaqələri ətrafında apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

Azərbaycan BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə daim sadiq qalaraq bütün dövlətlərin, o cümlədən Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edir. Biz Ukrayna xalqına humanitar yardım məsələlərini daim diqqətdə saxlayır, bundan sonra da lazımi yardım göstərməyə hazır olduğumuzu bildiririk.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın möhkəmlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Ukrayna xalqına sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 avqust 2023-cü il**

# Baş nazir Əli Əsədov Ukraynanın Baş nazirini təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ukraynanın Baş naziri Denis Şmıqala ölkəsinin Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, məktubda Azərbaycan və Ukrayna xalqları arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələrinin mövcud olduğu vurğulanıb. Qeyd olunub ki, məhz bu möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur.

Azərbaycan–Ukrayna ənənəvi dostluq münasibətlərinin və səmərəli əməkdaşlığının xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

***AZƏRTAC***

# Ermənistanın separatçı, təxribat xarakterli addımları humanitar məsələ kimi qəbul edilə bilməz



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Belçika Krallığının ölkəmizdə səfərdə olan xarici işlər, Avropa işləri, xarici ticarət və federal mədəni institutlar naziri Haccə Lhəbibi və rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycan Xarici İşlər Nazirliyindən "XQ"yə bildirilib ki, nazir Ceyhun Bayramov və nazir Haccə Lhəbib arasında təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüş zamanı Azərbaycan-Belçika arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb. Bölgəmizdə yeni reallıqlar kontekstində Belçika ilə iqtisadi, mədəni, ticarət, alternativ enerji, yüksək texnologiyalar, tibb və əczaçılıq və s. istiqamətlərdə müvafiq əməkdaşlığın daha da genişləndirilməsi imkanları olduğu bildirilib.

Müzakirələr zamanı, Ermənistanın 30 ilə yaxın dövr ərzində Azərbaycanın ərazilərinin işğalına, 9 şəhər və 300-dən yuxarı kəndin dağıdılmasına, etnik təmizləmə siyasətinə diqqət yönəldilib.

Postmünaqişə dövründə mövcud regional vəziyyət və reallıqlar, Azərbaycan tərəfindən Ermənistan ilə münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə nəqliyyat və kommunikasiyaların açılması, eləcə də sərhədlərin delimitasiyası istiqamətində göstərilən səylər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov, Ermənistanın davamlı qeyri-konstruktiv yanaşma sərgilədiyini, hərbi-siyasi təxribatlar törətdiyini, öhdəliklərindən boyun qaçırdığını, üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Laçın yolundan hərbi və mina təhdidinin davam etdirilməsi üçün sui-istifadə olunduğunu bildirib.

Görüşdə nazir Ceyhun Bayramov tərəfindən Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh gündəliyi, bu çərçivədə ölkəmizin konstruktiv yanaşması və müvafiq səyləri müqabilində Ermənistanın ziddiyyətli və təxribatçı mövqeyi haqqında müqabil tərəfə məlumat verilib.

Xüsusilə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası səylərinə Ermənistanın hər vəchlə maneçilik törətməsi, Laçın-Xankəndi yolu ətrafında yalan iddialar yayması qeyd olunub. Laçın yolundan gündəlik əsasda erməni sakinlərin keçidiyi, əraziyə böyük həcmli yüklərin daşınması üçün isə Ağdam-Xankəndi yolundan istifadənin Azərbaycan tərəfindən təklif olunduğu xatırlanıb.

Nazir Ceyhun Bayramov, eyni zamanda, bölgədə onilliklər boyu Azərbaycana qarşı aparılan işğalçılıq siyasətinə bəzi dövlətlərin göz yummasının, habelə postmünaqişə dövründə Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının siyasi manipulyasiyadan başqa bir şey olmadığını diqqətə çatdırıb. Bütün bunlarla əlaqədar, bölgədə Avropa İttifaqı missiyası kimi beynəlxalq təşəbbüslərin Ermənistan tərəfindən sui-istifadə edilməsinə imkan verilməməsinin zəruriliyi vurğulanıb.

Azərbaycanın hər zaman sülh və təhlükəsizlik şəraitində, ölkəmizin ərazi bütövlüyü çərçivəsində birgə yaşayışın, inkişaf və rifahın tərəfdarı olduğu və bu istiqamətdə səylərini davam etdirəcəyi diqqətə çatdırılıb.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

***"Xalq qəzeti"***

# XİN-in Ukraynaya bayram təbriki

**Azərbaycan Xarici İşlər Nazirliri Ukraynanı Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edib.**

"XQ" xəbər verir ki, Nazirlik bu barədə "X"də yazıb.

"Müstəqillik Günü münasibətilə dost Ukrayna xalqını və hökumətini təbrik edirik. Biz strateji əməkdaşlığımızı genişləndirilməsində maraqlıyıq. Milli bayramınız mübarək!", – deyə XİN qeyd edib.

# Azərbaycan icması Praqada aksiya keçirdi




**ATƏT-in Praqadakı nümayəndəliyi qarşısında Azərbaycan icmasının fəalları tərəfindən Ermənistanı ifşa edən aksiya keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən "XQ"yə verilən məlumatda bildirilir ki, aksiya zamanı "Azərbaycan sülh istəyir, Ermənistan müharibə istəyir", "Ermənistan sülhü rədd edir, müharibəni seçir", "Ermənistan, sülh sazişini imzala!", "Azərbaycan torpaqlarında Ermənistan əsgəri olmamalıdır!", "Ermənistan, hücumu dayandır!", "Ermənistan, bizim torpaqlarımızın minalandırılmasını dayandır!", "Ermənilərin minaları dinc sakinləri öldürür!", "Azərbaycan ərazilərində ekoloji terrorun törədilməsinə son qoyulsun!", "Ermənistan İrəvandakı Azərbaycan mədəni irsini məhv edir", "Azərbaycanın təbii sərvətlərinin talanına son qoyulsun!", "Ətraf mühitə düzəldilməsi mümkün olmayan ziyanın vurulmasına son qoyulsun!" və sair şüarların əks olunduğu plakatlar nümayiş etdirilib.

Aksiya ilə maraqlanan Praqa sakinlərinə Ermənistanın ölkəmizə qarşı hərbi və ekoloji cinayətləri barədə ətraflı məlumat verilib.

# Birinci Qarabağ müharibəsi şəhidinin dəfni

**1992-ci ilin yanvarın 26-da Şuşa rayonunun Daşaltı kəndində şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçü Adil Niftəliyevin cəsədinin qalıqları avqustun 24-də doğma yurdunda dəfn olunub.**



Adil Niftəliyev 1966-cı il iyulun 24-də Xaçmaz rayonunun Kiçik Baraxum kəndində dünyaya göz açıb, hərbi xidmətdən sonra dəmiryolçu kimi çalışmağa başlayıb. Birinci Qarabağ müharibəsi başlayanda isə könüllü cəbhəyə yollanıb. Malıbəyli, Kərkicahan, Kosalar kəndləri uğrunda gedən döyüşlərdə fəal iştirak edib. 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatı zamanı itkin düşüb. Ondan sonra ailəsi Adil haqqında heç bir xəbər almayıb.

Adil Niftəliyevin dəfn mərasimində şəhidlərimizin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb, şəhidin məzarına tər güllər düzülüb, əklil qoyulub.

Qeyd edək ki, şəhid Adil Niftəliyev Şuşa rayonunun Daşaltı kəndi ərazisində qalıqları aşkarlanan şəxsiyyəti müəyyənləşmiş yeddi nəfərdən biridir.

***"Xalq qəzeti"***

# Karen Matevosyan barəsində həbs qətimkan tədbiri seçilib

**Azərbaycan Respublikasının Xankəndi şəhərində yaşayan Matevosyan Karen Eduardi avqustun 21-də "Telegram" və digər internet informasiya resurslarında rus dilində yayımlanmış videomüraciəti üzrə Baş Prokurorluğun İstintaq idarəsində cinayət işi başlanaraq ibtidai istintaq aparılır.**



Baş Prokurorluqdan "XQ"yə bildirilib ki, iş üzrə K.Matevosyan Cinayət Məcəlləsinin 279.1-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma) və 283.1-ci (milli nifrət və düşmənçiliyin salınması) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq axtarışa verilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Sergey Lavrov "taxıl sazişi" şərtlərini açıqlayıb

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov Cənubi Afrikada keçirilən BRİKS sammiti çərçivəsində BMT-nin Baş katibi Antonio Quterriş ilə görüşüb.**

"XQ" TASS-a istinadən xəbər verir ki, görüş zamanı tərəflər "taxıl sazişi" məsələsinə xüsusi toxunublar.

Rusiya Xarici İşlər Nazirliyinin məlumatında qeyd olunub ki, Lavrov rəsmi Moskvanın "taxıl sazişi"ndə iştiraka yalnız Rusiya tərəfi qarşısında götürülən bütün öhdəliklər faktiki olaraq yerinə yetirildiyi təqdirdə qayıtmağa hazır olduğunu bildirib.

# Hərbçilərimiz beynəlxalq təlimdə

**Azərbaycan Ordusunun hərbi qulluqçuları Gürcüstanın Tbilisi şəhərində "Agile Spirit 2023" çoxmillətli hərbi təlimində iştirak edirlər.**

Müdafiə Nazirliyindən "XQ"ə bildirilib ki, taktiki və komanda-qərargah təlimində 21 ölkənin nümayəndələri iştirak edirlər.

Beynəlxalq təlimdə əsas diqqət qarşılıqlı əlaqədə fəaliyyətlər zamanı döyüş uzlaşmasının təmin edilməsi, təcrübə mübadiləsi və peşəkarlığın artırılması, eləcə də şəxsi heyətin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsinə yönəldilib.

***"Xalq qəzeti"***

# Azərbaycanın hədəfləri məlum, yolu aydındır

*(əvvəli 1-ci səhifədə)*

Biz 2003-cü ilin payızından sonra da qarşımızda duran hədəflərə doğru aydın və konkret xətlər üzrə getməyi davam etdirdik. Təbii ki, ordu quruculuğuna daha böyük önəm verməklə. Məhz həmin önəmin nəticəsi idi ki, bütün qonşularına qarşı ərazi iddialarından əl çəkməyən, hətta, Azərbaycan ərazilərinin 20 faizini işğal edərək viranəyə çevirmiş Ermənistan dövlətinə son iki əsrin ən yaddaqalan "dərs"ini verdik. Fikrimcə, Ermənistanın kapitulyasiya aktına imza atması Azərbaycanın hədəflərə doğru gedən yolundakı ən möhtəşəm nəticəsi idi.



2020-ci ilin payızından – işğalçı düşmən üzərindəki tarixi Zəfərimizdən sonra Azərbaycanın qarşısında duran hədəflər təkcə konkretləşmədi, həm də bir neçə istiqamətə parçalandı. Tarixi üçtərəfli bəyanatdan sonra bizim əsas hədəfimiz ərazi bütövlüyümüzün tam bərpasına – yəni Azərbaycan Bayrağının Xankəndi üzərində də qaldırılmasına nail olmaqdan (o gün uzaqda deyil), sərhədlərin delimitasiya və demarkasiya məsələlərini yekunlaşdırmaqdan, işğaldan azad edilmiş ərazilərin bərpasını təmin etməkdən və ən nəhayət, Cənubi Qafqaza sülh gətirilməsindən ibarətdir. Təbii ki, beynəlxalq münasibətlər kontekstində bunlardan mükəmməl məqsəd ola bilməz və yoxdur. Çox təəssüf ki, konstitusiyası işğalçılıq, separatçılıq, terror, təxribat üzərində yazılmış Ermənistan Azərbaycanın bu addımlarını da əngəlləməyə çalışır. İnanırıq ki, həmin maneə ədalətin qarşısında uzun müddət tab gətirə bilməyəcək.

Yəni qardaş Türkiyə televiziyalarında tez-tez təkrar olunan "Azərbaycanın hədəfləri məlum, yolu aydındır" ifadəsi tamamilə yerində deyilmişdir və bu arqumentin alternativi yoxdur. Dövlət başçımız da son bir neçə ayda dəfələrlə demişdir ki, biz öz hədəflərimizə çatmaq üçün lazım olan bütün addımları atırıq və atacağıq.

Prezident iyulun 21-də Şuşada sualları cavablandırarkən sanki yeni hədəfləri müəyyən edirmiş kimi dedi ki, biz ayıq olmalıyıq, biz keçmişimizi unutmamalıyıq: "Biz unutmamalıyıq ki, qonşularımız tərəfindən kürəyimizə bıçaq sancıldı, gözlənilmədiyi anda qonşularımız kürəyimizə bıçaq sancdı və o zaman Azərbaycanda olan xaosdan istifadə edərək ərazilərimizi işğal etdi. Eyni zamanda, biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm Zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür".

Başqa bir məqam. Son günlər dünyanın müxtəlif ünvanlarından gələn xəbərlərdə eşidirik ki, guya, Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə imzaladığı Moskva bəyannaməsi Azərbaycan üçün heç bir səmərə verməyib. Dövlət başçımız həmin arqumentin əleyhinədir. Onun fikrincə, Moskvada imzalanan bəyannamə Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafında bir mərhələdir.

Dövlət başçımız dəfələrlə xatırlatdığı bir məsələni növbəti dəfə təkrar edir ki, Cənubi Qafqazdakı regional inkişaf əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır: "Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Əlbəttə, bu günə kimi gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsi başa çatandan bugünədək təxminən üç il keçib, biz getdikcə daha çox sayda birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın ərazisidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı… Yalnız bunu güc hesabına məcbur etdik. Lakin bu halda sülh olmayacaq. Bu, bölgə üçün heç də yaxşı ssenari deyil, sabitliklə, təhlükəsizliklə nəticələnməyəcək. Lakin, eyni zamanda, çox həssas geosiyasi vəziyyəti nəzərə alsaq, gələcəkdə də çətinliklər yaradacaq. Beləliklə, bildiyiniz kimi, üç vasitəçi var. Bunların hər biri kifayət qədər beynəlxalq səviyyədə mexanizmlərdən istifadə edə bilər ki, müstəqil olaraq fəaliyyət göstərsin. Biz ümid edirik ki, bu üçündən birində təkamülü, irəliləyişi görəcəyik".

Bu sətirləri dövlətimizin yuxarıda sadaladığımız hədəflərindən daha ikisi barədə demək istədiyimiz fakt və arqumentlərlə davam etdirək. Qeyd etmişdik ki, zəfərdən sonrakı əsas hədəflərimizdən biri də işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin yeni vüsət almasıdır. Dövlət başçımız Böyük Qayıdış barədə danışarkən xatırladır ki, biz 30-dan çox şəhər və kəndin baş planını təsdiqlədik, bir çox kəndlərin təməli də qoyuldu və artıq bu rəqəmlər səsləndirilmişdir: "Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insanı qaytaracağıq. İndi biz, necə deyərlər, işin ibtidai mərhələsindəyik. Çünki layihələndirmə, tender prosedurları çox vaxt aparır. Biz istəyirik ki, hər şey qayda ilə, qanunla olsun, tam şəffaf olsun və bu da vaxt aparır. Əminəm ki, keçmiş köçkünlər bunu anlayışla qarşılayırlar. Amma təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Ümid edirəm ki, Şuşa şəhərinə gələn il ilk sakinlər gələcək, yerləşəcəklər. İndi siz də yəqin ki, bu gün hələ vaxtınız olmayıb, ya axşam, ya sabah gəzəcəksiniz, görəcəksiniz ki, bir neçə yerdə artıq inşaat layihələrinin, yəni, yaşayış binalarının tikintisi gedir".

> ***Bizim ölkəmiz rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır. Bildiyiniz kimi, Rusiya və Amerika silahlı qüvvələrinin yüksək səviyyəli nümayəndələri, çox yüksək, yəni ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər. Bu isə bizə olan etimadın, etibarın göstəricisidir. Belə görüşlər dörd və ya beş dəfə keçirilib. Bu da onu göstərir ki, Azərbaycan maraqları birləşdirən ölkədir, hətta elə ölkələr arasında ki, onlar hər zaman rəqabətdədir. Yəni, bu, o vaxt idi ki, bu rəqabət dinc aparılırdı. İndiki şəraitdə isə belə təmaslar potensial olaraq Azərbaycanda yenə də bərpa edilə bilər.***
>
> ***Prezident İlham Əliyevin "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda təşkil olunan Qlobal Media Forumunda sualları cavablandırarkən səsləndirdiyi fikirlərdən. Şuşa, 21 iyul 2023-cü il***

O ki qaldı, Azərbaycanın Türkdilli dövlətlərlə əməkdaşlığa verdiyi önəmə – xatırladaq ki, bu məsələ həm ulu öndərin, həm də Prezident İlham Əliyevin xarici siyasətində əsas hədəflərdən biridir – bu məsələ ilə bağlı olduqca yeni bir xəbər var. Yəni srağagün Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasına dövlət səfərinə gəlib. İnanırıq ki, bu səfər Azərbaycan – Özbəkistan dostluq və tərəfdaşlığının daha da zənginləşməsi ilə yanaşı Azərbaycan – Türk dünyası əməkdaşlığının inkişafına da özünəməxsus töhfələr verəcək.

Ümumiyyətlə, Azərbaycan Prezidentinin müəyyən etdiyi elə bir hədəf yoxdur ki, xalqımız o hədəfə çatmağımızın şahidinə çevrilməsin. Hədəflərin həmişə bəllidir, Azərbaycan. Yolun daim açıq olsun!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

---

**İrəvan özünü saldığı siyasi labirintdən çıxış yolları axtarışındadır. Reallığın təməl prinsipləri sayılan haqqı və ədaləti bir kənara qoyub, yalan və dezinformasiya ilə "silahlanan" Ermənistan iqtidarı özünün şər təbliğatına yeni tərəfdaşlar cəlb etməyə çalışır. Bu "prosesdə" İkinci Qarabağ savaşına qədərki dəstəkçilərindən, Bakının tarixin arxivinə göndərdiyi ATƏT-in Minsk qrupu kimi amorf təşkilatdan da yararlanmağı unutmur.**

# Kasprşikin yenidən zühuru

## *Hərbi və beynəlxalq hüquq müstəvisində uduzan İrəvan yenə köhnə bayatılar səsləndirir*



Hökumətə yaxın informasiya agentlikləri xəbər verirlər ki, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan İrəvanda ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andjey Kasprşiklə görüşüb. Məlumatda o da vurğulanır ki, Ermənistana ATƏT sədrinin xüsusi tapşırığı çərçivəsində gələn şəxsi nümayəndənin vəzifəsi Laçın dəhlizinə (?) baş çəkmək və oradakı mövcud vəziyyət barədə hesabat hazırlamaqdır. Görüşdə, həmçinin, bölgənin təhlükəsizliyi ilə bağlı məsələlər də müzakirə edilib. Bu mövzu ətrafında "xüsusi olaraq dayanan" Mirzoyan Azərbaycanın Laçın dəhlizini (?) qanunsuz olaraq bloklaması nəticəsində Dağlıq Qarabağda (?) humanitar böhranın dərinləşməsini "yüksək qonağın" nəzərinə çatdırıb və beynəlxalq birlik, o cümlədən, ATƏT tərəfindən təcili və effektli addımların atılmasının vacibliyini bəyan edib. Hayların baş diplomatının qənaətincə, yalnız bu yolla yetişməkdə olan "dəhşətli humanitar fəlakətin fəsadlarının qarşısını almaq" mümkün olar.

* * *

Ararat Mirzoyan neçə aydır eyni yalanları, dezinformasiyanı, ideoloji təxribatı təkrarlamaqdan yorulmur. Dünyanın ən ali beynəlxalq qurumu sayılan BMT-nin Təhlükəsizlik Şurasında uğradıqları məğlubiyyətin tüstüsü başlarından getməmiş bunlar yenə yüksək statuslu təsisatların Azərbaycana təzyiq göstərmək variantlarını axtarır. Təmsil etdiyi qurumundan və özündən dəftərxana qoxusu gələn Kasprşikin ardınca anti-Azərbaycan diplomatik fəaliyyətini davam etdirən A.Mirzoyan gündəliyini "məşğul etmiş vacib məsələr barədə" Polşanın Xarici işlər naziri Zbiqnev Rau ilə telefon danışığı aparıb. Telefonda polşalı nazirə "8 aydan çox müddət ərzində Azərbaycanın Laçın dəhlizini (?) blokadada saxlaması nəticəsində Dağlıq Qarabağda (?) humanitar böhranın kəskinləşməsi" barədə "müfəssəl" hesabat verib. Hayların baş diplomatı bölgənin bütün "erməni rayonlarında" həyat şəraitinin ağırlaşdığını, yaşayış ritminin pozulduğunu, 120 min (?) insanın elementar hüquqlardan məhrum olduğunu, onların gündəlik tələbat mallarına olan ehtiyacının 90 faizinin Ermənistandan idxal edildiyini çatdırıb.

Bununla da kifayətlənməyən Mirzoyan Azərbaycanın "Dağlıq Qarabağı (?) etnik təmizləməyə məruz qoymaq niyyətinin qarşısının alınması zərurətindən" bəhs edib, bunun üçün "beynəlxalq birliyin müraciətlərinin kifayət etmədiyini, konkret hərəkətlərə ehtiyac duyulduğunu" xüsusi olaraq vurğulayıb.

Yəni, eyni "arqumentlər", təkrar "izahatlar", məsuliyyətsiz hesabatlar və heç bir fakta və sübuta söykənməyən ittihamlar. Mədət umduqları dünya birliyinin bu "sınıq val mahnılarından" yorulduğunu özləri də bilə-bilə yenə dezinformasiyanı üfürməkdən usanmırlar.

* * *

Ermənistanın xarici işlər nazirinin "blokada", "humanitar böhran", "etnik təmizləmə", "beynəlxalq mexanizm" kimi kökdən düşmüş notlar üzərində "solo ifasını" bu dəfə Lüksemburq Böyük Hersoqluğunun Xarici işlər naziri Jan Asselborn dinləməli olub. Bu dəfə Dağlıq Qarabağ (?) ermənilərinin ərzağa, dava-dərmana və digər gündəlik tələbat mallarına təcili ehtiyac duyduqlarını yazıq səslə telefonda Lüksemburq diplomatiya idarəsinin başçısının qulağına çatdıran Mirzoyan bölgədə fəaliyyət göstərən yeganə beynəlxalq humanitar təşkilat olaraq Qırmızı Xaç Komitəsinin fasiləsiz işinin təşkilini vacib saydıqlarını deyib.

Söhbət o Qırmızı Xaç Komitəsindən gedir ki, Azərbaycan sərhədçiləri təcili yardım maşınlarında qaçaqmalçılıqla məşğul olduğunu foto-video çəkilişlərlə sübuta yetirdi və bütün dünyanın nəzər-diqqətinə çatdırdı. İndi Mirzoyan, guya, Qarabağ ermənilərinin yeganə ümid yeri kimi korrupsiyaya bulaşmış bu bədman beynəlxalq təşkilatın yardımından söz açır. Necə deyərlər, bunlar pis niyyətlərinə, çirkli əməllərinə bulaşdırmadığı təşkilat, ölkə qoymadılar. Amma ən maraqlısı budur ki, onlar hər şeyi görür, başa düşür və ...susurlar.

Hayların baş naziri avropalı diplomatın diqqətinə Beynəlxalq Məhkəmənin Laçın dəhlizi (?) və Dağlıq Qarabağa (?) humanitar əlçatanlığın təminatı barədə bu ilin 22 fevral və 6 iyul qərarlarını tam təhrif etməklə çatdırıb. Əslində, o, bununla tək nazirin deyil, ölkənin rəyini manipulyasiya etmək yolunu tutub. Düz deyiblər ki, vərdiş halını almış adəti, davranışı tərgitmək çətin məsələdir. Bundan daha betəri isə vərdişə çevrilən belə davranışlardan utanmamaq, onlara görə xəcalət çəkməməkdir.

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Tofiq ZÜLFÜQAROV, Azərbaycanın sabiq Xarici işlər naziri**



BMT Təhlükəsizlik Şurasının məlum iclası onu göstərdi ki, Azərbaycanı ittiham etmək üçün təkcə Ermənistan yox, bir sıra qüvvələr birləşib. Buna real əsas olmadığı halda, uydurma mövzunu ortaya atdılar, amma nəticədə özləri ifşa olundular. Burada söhbət ondan getmir ki, bizim hərbi gücümüz çatır, ya çatmır, siyasi iradəmiz yetərincədir, ya yox? Başa düşməliyik ki, bu məsələdə çox ehtiyatlı davranmalıyıq. Ona görə yox ki, kimdənsə qorxuruq. Sadəcə məqsədimiz orada qaldırılan problemləri həll etməkdir ki, məqsədimizə çataq. Yəni üçrəngli bayrağımızı Xankəndiyə sancaq. Amma aydındır ki, bu, həm də emosional mövqedir. Biz elə vəziyyət yaratmalıyıq ki, həm öz məqsədlərimizə çataq, həm də bizə qarşı əsassız siyasi ittihamlar irəli sürmələri üçün düşmənlərimizə bəhanə verməyək. Ermənistanın yanında böyük bir dəstəkçilər qrupu yaranıb və gözləyirlər ki, hansısa məsələdə bizi ittiham eləsinlər. Bu məsələ ermənilərin möhtac qaldığı sonuncu şansıdır.

Hərbi və beynəlxalq hüquq baxımından onlar uduzublar, indi hansısa məsələni saxtalaşdırıb bizə qarşı istifadə etməyə çalışırlar. Hələlik, bölgədə genişmiqyaslı hərbi əməliyyatları görmürəm, amma hansısa lokal toqquşmaları istisna etmirəm. Əməliyyat şərti sərhəddə ola bilər. İndi Qafan aeroportu mövzusu gündəmə gəlib. Bu baxımdan bizi maraqlandıran əsas ərazi Zəngəzurdur. Ermənilər cəhd edirlər ki, gərginliyi Qarabağda yaratsınlar, Zəngəzur gündəmdən çıxsın. Əslinə qalsa, Təhlükəsizlik Şurasının iclasında da onların məqsədi bu idi.

# Paşinyanın rəngarəng "sülh yuxuları"

## İrəvan danışıqlar prosesini tormozlamaq, kövrək ümidlərin üzərindən xətt çəkmək yolunu tutub

*(əvvəli 1-ci səhifədə)*

Paşinyan administrasiyanın hazırladığı və Bakıya göndərdiyi deyilən sülh müqaviləsinə yeni təkliflərin nədən ibarət olduğu açıqlanmasa da, bu faktın özü maraqlı məqamları ortaya qoyur. Birincisi, ikitərəfli sülh danışıqlarının gündəliyi hələ mart ayında müəyyənləşdirilib və bu şərtlər çərçivəsində beş aydan çoxdur ki, Moskva, Brüssel və Vaşinqton treklərində dialoq raundları davam etdirilir. İkincisi, düzdür, həmin danışıqlar paketində tərəflərin ümumi razılığa gəldiyi məsələlərlə yanaşı, mübahisə doğuran məqamlar da az deyil. Bu barədə isə vasitəçilik missiyasını yerinə yetirən siyasi fiqurlar – Lavrov, Şarl Mişel və Entoni Blinken tərəfindən vaxtaşırı müvafiq açıqlamalar verilib. Üçüncüsü, təkcə Qarabağda deyil, bütövlükdə, Cənubi Qafqazda hadisələrin gərgin məcrada cərəyan etdiyi indiki məqamda İrəvanın sülh müqaviləsinə "korrektələr" etmək təşəbbüsü onun yalnız və yalnız sülh prosesini ləngitmək, əldə edilmiş kövrək irəliləyişin üzərinə kölgə salmaq cəhdindən başqa bir şey ola bilməz. Paşinyanın "rəngarəng yuxularının" məhsulu sayıla biləcək sülh müqaviləsinə "təkliflərinin" mahiyyətinə varmadan deyə bilərik ki, bu paketdə Bakı üçün məqbul sayılmayacaq hansısa nüanslar yer alır. Belə bir ideyanın indi ortaya atılması, sadəcə, siyasi avantüradır.

* * *

Hökumətin məlum iclasında Nikol Paşinyan aldığı bir "maraqlı" məlumatı da toplantı iştirakçılarının nəzərinə çatdırıb. Onun sözlərinə görə, Bakı tərəfindən Laçın dəhlizinin (?) bir istiqamətdə açılması üzrə planlar qurulur və məqsəd sərhəd postunda yalnız Dağlıq Qarabağdan (?) gedənlərə icazə verməkdir.

Azərbaycan tərəfindən Laçın dəhlizinin (?) qeyri-qanuni olaraq "blokadasının" (?) davam etdiyini deyən hayların baş naziri bu zaman Ermənistan hökumətinin Dağlıq Qarabağ (?) üçün nəzərdə tutulmuş 400 tona yaxın humanitar yükün hələ də bölgəyə giriş yolunda gözlədiyini "ürək ağrısı" ilə yada salıb.

Paşinyan Dağlıq Qarabağda (?) humanitar vəziyyətin gərgin olaraq qaldığına diqqəti yönəldərək, çıxışında bunları da söyləyib: "Yaranmış situasiyada yeganə dəyişiklik ondan ibarətdir ki, Qırmızı Xaç Komitəsinin və Dağlıq Qarabağdakı (?) Rusiya sülhməramlı qüvvələrinin vasitəçiliyi ilə müalicəyə ehtiyacı olan və digər şəxslərin Laçın dəhlizi (?) ilə müəyyən hərəkəti başlayıb. Eyni zamanda, əldə etdiyimiz mötəbər informasiyaya görə, Dağlıq Qarabağdan (?) çıxışa icazə verilir, amma girişə manecilik törədilir".



Onun sözlərinə görə, hazırda Dağlıq Qarabağın (?) çox sayda sakini Ermənistan Respublikasındadır və onlar Dağlıq Qarabağa (?) qayıda bilmirlər. Bu zaman Paşinyan bu kateqoriyadan olan ermənilərin sayını da açıqlayıb: "Keçən ilin dekabrında Laçın dəhlizi (?) qanunsuz bağlanandan sonra 5 minə yaxın, 2020-ci il 10 noyabr Bəyanatının 7-ci bəndinin yerinə yetirilməməsi səbəbindən isə 30 minə yaxın erməni bölgəyə qayıda bilmir".

Paşinyanın sözündən belə çıxır ki, hazırda Ermənistanda 35 min Qarabağ ermənisi intizarla evlərinə qayıdacağı günü gözləməkdədir. Bu uydurma rəqəmin gülüş doğurması bir yana, təəccüb yaradan tərəfi odur ki, indi şəffaf və obyektiv siyahıyaalınma keçirilsə, Azərbaycanın Qarabağ iqtisadi rayonunda bu saydan da az erməni sakinin qaldığı məlum olar.

* * *

Bu yandan sülhdən danışan İrəvan o yandan Fransadan, Hindistandan, başqa ölkələrdən silah-sursat almaqla məşğuldur. Üstəlik, son vaxtlar Ermənistan cəmiyyətində daxili səfərbərlikdən danışılır. Açığı, Paşinyanın dəfələrlə təkrarlanan bu cür feyk-çağırışları yadımıza folklorumuzdakı yalançı çoban obrazını salır. Canavarların sürüyə hücum etdiyini kəndə car çəkən, hər dəfə yalanının üstü açılan və sonda yırtıcıların real basqını ilə üzləşəndə köməksiz və çarəsiz qalan cobanı deyirik. Müqayisə bir qədər qüsurlu görünə bilər. Amma biz Paşinyan iqtidarının heç bir müsbət sonluğa, məntiqi nəticəyə gətirməyən yalançı vədlərini, təkliflərini çox eşitmişik.

Üç ilə yaxındır onlar real və konkret addımlar atmağın əvəzinə yalnız sülh sazişinə əlavələrdən, düzəlişlərdən danışırlar. Amma ortalığa konkret heç nə qoya bilmirlər. Bunun qarşılığında Bakı özünün 5 şərtdən ibarət təkliflər zərfini rəsmən açıqladı, 3+3 formatına razılığını bildirdi, sülh danışıqlarının bütün treklərində iştirak etdi. Yəni, sözümüz və hərəkətimizlə göstərdik ki, biz doğrudan da, müharibə səhifəsini çevirmək istəyirik. Münasibətlərə dinc yanaşı yaşamağa aparan sülh və əmin-amanlıqla yeni abzasdan başlamağa hazırıq. Onları da bu yola dəvət edirik. Və bütün bu təklifləri müharibədən qalib çıxmış tərəf kapitulyasiyaya imzasını atmış rəqibinə verir. Bəs əvəzində nə görürük? Saxta, qeyri-səmimi, blef gedişlər. Yuxarıda qeyd etdiyimiz kimi, dünən Paşinyanın açıqlaması da rəngli röyasının, blef yuxusunun bəhrəsi idi.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

### Ekspert rəyləri



**Fikrət SADIXOV,**
**politoloq**

Müharibədən sonra Azərbaycan sülh sazişi ilə bağlı öz təkliflərini verib. Həmin təkliflər bu gün də öz qüvvəsində qalır. İrəli sürülən hər bir yeni təklifin əsas göstəricisi onun məzmunudur. Biz Paşinyanın təkliflərində nələrin yer aldığını, hansı təşəbbüslərin irəli sürüldüyünü hələlik bilmirik. Hər halda, İrəvan gedən dialoqla paralel olaraq təkliflərini açıqlayırsa və bunlar bizim təkliflərimizlə üst-üstə düşürsə, onları qəbul etmək mümkündür. Amma yeni təkliflər paketində yenə də qondarma artsax, Qarabağın erməni icması ilə dialoq üçün hansısa beynəlxalq mexanizmlərin cəlb edilməsi kimi çağırışlar olsa, bu, təbii ki, Azərbaycan tərəfindən qəbul olunmayacaqdır. Bu məsələ onlarlıq deyil, çünki Qarabağ bizim suveren ərazimizdir və oradakı erməni sakinlərlə hansı formada dialoq aparacağımızı özümüz yaxşı bilirik.

Ermənistan Azərbaycanın ərazi bütövlüyünü rəsmi formada tanıyandan sonra konkret və əməli addımlar atmalıdır. On minə yaxın hərbçisinin Qarabağdan çıxarılmasını təmin etsin. İrəvan başa düşməlidir ki, Bakı gec-tez həmin silahlı quldurları bölgədən rədd edəcəyik. İndiki məqamda onların irəli sürdüyü təkliflər sadəcə gözdən pərdə asmaq xarakteri daşıyırsa, bunu heç vaxt qəbul etməyəcəyik.



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

Paşinyan belə cılız manevrlərin sayəsində "diplomatik ustalıq" nümayiş etdirməyə çalışır. Birinci dəfə deyil ki, danışıqlar prosesinin gedişində hansısa əlavələrinin, təkliflərinin olduğunu bildirir. Sonda görmüşük ki, bunlar boş vədlərdən başqa bir şey deyil. Əgər təklif varsa, onu verən tərəf dəqiq niyyətini, sülhə bağlılığını, prosesə xidmət etməsini əməlləri ilə təsdiqləsin. Amma təəssüf ki, Paşinyan və onun iqtidarı tərəfindən bu addımları görmürük. Atdıqları addımlar isə təxribat yönlüdür. İndiki məqamda Paşinyan sülh sazişi ilə bağlı əlavələrinin olduğunu deyirsə, onda gərək sual verək: Onun sülhə yönəlik fəallığı, istəkləri nə zaman baş verir? Deməli, bu, BMT Təhlükəsizlik Şurasında onların müraciətinə rədd cavabı verildikdən sonra baş verir. Həm də Azərbaycan diplomatiyası qarşısında bir daha diz çökəndən sonra. Azərbaycan beynəlxalq qaydaları pozmayan bir məmləkətdir və buna görə bizə heç kəs nə bir irad bildirə, nə də tənbehedici qərar çıxara, tövsiyə verə bilər. Məhz BMT-dəki siyasi fiaskodan sonra Paşinyan yenidən köhnə vərdişini işə salıb, özünü guya sülh tərəfdarı kimi qələmə verməyə çalışır.

Əlbəttə, bu, məsələyə qeyri-ciddi yanaşmadır. Onun bu təklifi start siqnalı verilmədən özünü hovuza atan üzgüçünün hərəkətinə bənzəyir. Həmin an hakim "fall-start" elan edir. Bu yanlış taktiki addım Paşinyan iqtidarı tərəfindən tez-tez atılır. Amma biz yaxşı bilirik ki, Ermənistan cəmiyyəti, onun siyasi dairələri, elitası üçün sülh planı hələlik yoxdur.

# Alen Simonyan kefindən qalmır

## Hayların parlament sədrinin "bahalı məzuniyyəti" "humanitar blokada" mifini bir daha ifşa edir

**Bu ilin aprelində İrəvanın mərkəzində onu tənqid edən vətəndaşın üzünə tüpürməsi ilə hayların böyük narazılığını qazanmış Ermənistan parlamentinin spikeri Alen Simonyan yenə gündəmdədir. Hazırda onun gündəmə gəlməsinə müxtəlif Avropa ölkələrində dincəlməsi ilə bağlı sosial şəbəkələrdə paylaşdığı fotolar səbəb olub.**

Ermənistan vətəndaşları Simonyanın "İnstaqram"da paylaşdığı fotolara şərhlər yazaraq indiki məqamda bu cəh-cəlalın haradan olduğunu soruşurlar. Onlar öz fikirlərini bununla "əsaslandırırlar" ki, Qarabağda "ağır humanitar vəziyyət"in hökm sürdüyü, insanların "aclıq içində" və bütövlükdə, bölgənin "blokada" vəziyyətində olduğu bir məqamda parlament sədrinin bahalı ölkələrdə məzuniyyətdə olması heç bir çərçivəyə sığışmır. Digər tərəfdən, ermənilər şərhlərdə Simonyanın dövlət büdcəsi hesabına məzuniyyətdə olduğuna əminliklərini bildiriblər. Haylar parlament sədrinin xalqın dərdlərinə biganə olmasından gileylənib, onu "meşşan" adlandırıblar.

Qeyd edək ki, məzuniyyətdə olan A.Simonyan Norveç və İspaniyanın gəzməli-görməli yerlərində, füsunkar təbiət qoynunda fotolar çəkdirərək, bunları "İnstaqram" hesabında yerləşdirib. Simonyanın bu addımı Ermənistan mediası tərəfindən tənqid olunub. Məsələn, Panorama.am saytının "Alen Simonyan "Qarabağın blokadası"na və sakinlərinin "pis qidalanmasına" baxmayaraq, geniş təbəssümlə fotoşəkil paylaşır" sərlövhəli məqaləsində deyilir: "Qarabağın 8 aydan artıqdır davam edən "blokadası", 120 min həmvətənimizin qidasız olması (?), kütləvi şəkildə huşunu itirmələri və sərhədlərimizdə gündəlik atışmaların eşidilməsi şəraitində Ermənistan parlamentinin spikeri kürsüsünü tutan Alen Simonyan dünyaya geniş şəkildə gülümsəyir. Artıq iyul ayında istirahətdən həzz almağa uğurla vaxt tapan Alen Simonyan yenidən məzuniyyətə çıxıb.

Bu gün hamı Ermənistanın Şirak vilayətində 11 nəfərin öldüyü avtomobil qəzasının (avqustun 14-də Qərbi Azərbaycanın Şörəyel mahalında 11 nəfərin həlak olması, 6 nəfərin yaralanması ilə nəticələnmiş yol-nəqliyyat hadisəsi nəzərdə tutulur – S.H.) səbəblərini müzakirə edir. Cəmiyyət baş verənlərə təəssüflənir, bu cür qəzaların qarşısını almağın yollarından danışır. İki saat əvvəl isə Simonyan "İnstaqram" səhifəsində Norveçdən çəkdirdiyi fotonu yerləşdirib. Bu fotoda onun üzündə geniş təbəssüm var".

Sayt xatırladır ki, parlament sədri postunu tutan Simonyanın ailəsi heç vaxt təvazökarlığı ilə seçilməyib: "Ölkənin üzləşdiyi fəlakət və təhdidlərə baxmayaraq, o və həyat yoldaşı sosial şəbəkələrdə tez-tez istirahət, ezamiyyət və axşam məclislərindən foto-videolar yerləşdirirlər".

"Aysor.am" saytı isə "Alen Simonyan həyatdan həzz almağa və geniş gülümsəməyə davam edir" sərlövhəli xəbərində yazır: "Ermənistan parlamentinin sədri vəzifəsini tutan Alen Simonyan "İnstaqram" səhifəsində yeni fotolar yerləşdirib. Bu dəfə o, helikopter yanında, ayağında başmaqlar və sərbəst geyimdə görüntülənib".

***

Qeyd etdiyimiz kimi, bu, A.Simonyanın ermənləri qıcıqlandıran ilk addımı deyil. Onun cari ilin iyun ayında Londona gedən parlament nümayəndə heyətinin tərkibinə həyat yoldaşını və qızını daxil etməsi də narazılıq doğurmuşdu. Bununla bağlı "Hayastan.nyus" saytında iyunun 9-da yerləşdirilmiş "Alen Simonyan, arvadı, qızı və 12 nəfərlik nümayəndə heyəti Londonda" sərlövhəli məqalədə deyilirdi: "Alen Simonyan 13 nəfərlik nümayəndə heyəti ilə Londona gedib – təbii ki, dövlət büdcəsi hesabına. O, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı parlamentinin aşağı palatasının (İcmalar Palatası) sədri ilə görüşüb. O, bunu təkbaşına da edə bilərdi, nümayəndə heyətinin olmasına qətiyyən ehtiyac yox idi.

Simonyan, həmçinin parlamentin yuxarı palatasının (Lordlar Palatası) sədri, İcmalar Palatasının üzvləri, Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri, habelə mədəniyyət naziri ilə görüşüb. Qeyd etməliyik ki, bu hərəkətləri təkbaşına və ya iki-üç nəfərlə, ya da Ermənistana gələn Avropa rəsmilərinin etdikləri kimi etmək olardı. Amma 13 nəfərlik nümayəndə heyəti ilə Londona getməyin heç bir izahı yoxdur.

Amma bu da hələ hamısı demək deyil: Alen Simonyan arvadını və qızını da özü ilə Londona aparıb. Üstəlik, Simonyanın "işdən sonra" işarəsi qoyulmuş fotolarının sayı rəsmi məlumatların sayından çoxdur. "Mülki müqavilə" partiyasının üzvləri, Alen Simonyan, onun ailə üzvləri Londonu gəzib, fotoşəkillər çəkdiriblər. Alen Simonyan qızına məşhur London körpüsünü göstərib. Onlar Britaniya muzeyinə də baş çəkiblər, ilahə Anaitin heykəlinin fraqmenti ilə şəkil çəkdiriblər. Simonyanın arvadı axşam saatlarında sosial şəbəkə hesabında Londondan paylaşım edib və yazıb: "Həyat qaynayır". Təbii ki, qaynayır".

London səfərindən bir neçə gün sonra – iyunun 12-də A.Simonyanın həyat yoldaşı Mariam Marqaryanın İrəvanda keçirilən ad günü tədbiri də Ermənistan cəmiyyətində qıcıq yaradan addımlardan idi. Belə ki, "İnstaqram"dakı videolardan birində Simonyanın ziyafət paltarı geyinmiş arvadının əlindən tutaraq onunla birlikdə hovuza necə atıldığı görünür.

***

Onu da qeyd edək ki, hər zaman özünə xüsusi fikir verməsi, baxımlı olmağı, səliqəli geyinib-keçinməyi, saç düzümü, komfort həyatı ilə seçilən Qərbyönümlü Simonyan 44 günlük Vətən müharibəsi zamanı Yunanıstanda istirahət etməsi ilə gündəmə gəlmişdi. Həmin il onun 40 yaşı tamam olmuşdu. Onun həmyaşıdları müharibədə iştirak edəndə, qurban gedəndə, yaralananda Simonyan Yunanıstan adalarında dincəlirdi.

Müharibədən sonra – 2020-ci ilin dekabrında Ermənistan cəmiyyəti onun terror-diversiya əməllərinə görə həbs edilən və barələrində Azərbaycan məhkəmələrinin hökm çıxardığı şəxslərlə bağlı dediyi sözlərlə çalxalandırdı. Simonyan həmin



vaxt demişdi: "Hesab edirəm ki, əsirlər (?) mənim üçün artıq mövcud deyil. Bir tərəfdən əsir düşən (?) əsgərlərin özlərini alçaldılmış hiss etməsini istəmirik, digər tərəfdən də cəmiyyətimiz və hərbçilərimiz bilsinlər ki, əsir düşmək (?) yaxşı hal deyil". Onun sözlərinə görə, əsir düşənlər silahı yerə qoyub fərarilik edənlərdir. Simonyan bütün fərarilərin mühakimə edilməli olduqlarını da bildirmişdi.

Əsir və itkin düşmüş hərbçilərin valideynləri və qohumları Ermənistan hökumətinin binasının qarşısına toplaşmışdılar. Onlar Simonyanın əsirlərə bağlı qalmaqallı açıqlamalarından hiddətləndiklərini bildirmişdilər. Etirazçılar ölkənin müxtəlif yerlərindən insanların İrəvana gəldiklərini və hamı toplaşdıqdan sonra hərəkətə keçəcəklərini qeyd etmişdilər. "Qoy Simonyan dediklərini izah etsin. Haradadır bizim uşaqlar? Özü dəfn edib onları?", – deyə etirazçılar vurğulamışdılar.

Onu da qeyd edək ki, parlamentin sədri bir müddət – 2022-ci ilin fevralın 1-dən martın 13-dək Ermənistan prezidentinin səlahiyyətlərini də icra edib. Simonyan bu qısa dövrdə də qalmaqala imza atmağı bacarıb. O, protokola zidd olaraq fevralın 10-da prezident iqamətgahında bir neçə sənət adamı üçün dəbdəbəli ziyafət vermişdi. Qonaqlar və Simonyan süfrə arxasında söhbət etdikdən sonra musiqi sədaları altında söhbətə davam etmiş, əylənmişdilər. Görüşün bu şəkildə ictimaiyyətə təqdim edilməsi də haylar arasında etiraz dalğasının yaranmasına səbəb olmuşdu.

Ancaq görünən odur ki, bütün bu tənqidlər, qınaqlar, narazılıqlar A.Simonyanın heç vecinə də deyil. Ötən ilin sentyabrında sosial şəbəkələrdə Simonyan və deputat Hraçya Akopyan (baş nazir Nikol Paşinyanın qaynı) Yunanıstandakı bahalı kurortlardan birində istirahət etdiklərini əks etdirən video yaymışdı. Bundan əlavə, Simonyan Yunanıstandan arvadı ilə fotosunu da dərc etmişdi.

Həmin hadisə parlamentdə də müzakirə olunmuşdu. Bu zaman Simonyan Yunanıstanda istirahətdən çəkilmiş videoçarxa münasibət bildirmək sorğusuna cavab olaraq şəxsi həyatını müzakirə etmək niyyətində olmadığını demişdi.

"Şəxsi həyatıma və yalanlara gəlincə, mən onları şərh etmirəm", – deyə Simonyan "Hayastan" blokunun deputatı Areknaz Manukyanın sualına cavab vermişdi.

Manukyan cavabında bildirmişdi ki, görüntülər sosial şəbəkədədir, orada Simonyanın kurortda rəqs etdiyi göstərilir. Deputat qeyd etmişdi ki, spikerin gəlir bəyannaməsinə əsaslanaraq, onun və dostlarının belə bahalı kurort xərcini ödəyə bilməyəcəyini söyləmək olar. Manukyan Simonyandan Yunanıstanda nə qədər pul xərcləndiyini aydınlaşdırmasını tələb edib: "Bundan başqa, mərc (bukmeker) kontorlarından birinin xərcləri ödədiyinə dair sübutlar var. Bu halda siz klassik korrupsiya ilə məşğul olursunuz".

Simonyan isə suala cavab verməkdən imtina edərək deputata "sarı mətbuatı" izləməməyi təklif etmişdi.

Göründüyü kimi, hayların başlarına bəla olan parlament sədri ona ünvanlanan tənələrə baxmayaraq, öz kefindədir. Ermənistanın çoxlu problemlərinin olduğu bir zamanda ölkənin üç hakimiyyət qolundan birinə Simonyan kimisinin rəhbərlik etməsi ermənilərin üzqarasıdır. Paşinyan iqtidarının xalq üçün çalışdığını deyir, Simonyanın əməli isə onun dediklərinin yalan olduğunu isbat edir.

Burada bizim üçün ən önəmli məqamlardan biri də Simonyanın bahalı məzuniyyətinin Qarabağda ermənilərin, guya, kəskin ərzaq böhranı yaşadığı iddiasını darmadağın etməsidir. Bu, bir daha onun göstəricisidir ki, Qarabağda hansısa "aclıq" yoxdur. Bunu ən yaxşı bilənlərdən biri də Ermənistan parlamentinin sədri Alen Simonyandır.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

# Heydər Əliyev dərsləri

(əvvəli "XQ"-nin ötən saylarında )

### "Nə itirmisiniz orada?"

**Birinci Qarabağ müharibəsinin qızğın çağında Türkiyənin bəzi iş adamları Ermənistanla əlaqələr yaratmağa cəhd göstərmişdilər. İstanbula səfərlərinin birində Heydər Əliyev onların bu hərəkətlərini qətiyyətlə pisləmişdi. Ulu öndərin Türkiyənin iş adamları ilə görüşdəki çıxışından bir hissəni təqdim edirik:**

– Ancaq son zamanlar Türkiyənin bəzi iş adamlarının Ermənistanla iş qurmaq cəhdləri bizi rahatsız edir. Bu, Azərbaycanda çox mənfi qarşılanır, anlaşılmır. Mən bunu Türkiyənin dövlət, hökumət başçılarına demişəm, öz etirazımızı da bildirmişəm. Məsələn, Yerevandan Trabzona təyyarələr uçur. Deyirlər ki, bunlar özəl təyyarələrdir. İndi elə hər şey özəldir. Demək, adını özəl qoyanda özünü kənara çəkəcəksən ki, mənim bundan xəbərim yoxdur? İndi hər şey özəldir, bundan sonra da özəl olacaqdır. Ona görə mən bunu anlamıram, Azərbaycanda da anlamırlar.

Sizin qəzetlər yazır – biz sizin qəzetlərdən götürmüşük – təyyarələr Yerevandan Trabzona gedib-gəlir, yaxud da Ermənistandan avtobuslar, yük maşınları Gürcüstan vasitəsilə Trabzona gəlirlər. Bunlar bir tərəfə, indi sizin iş adamlarının bəziləri məsələ qoyublar ki, biz gərək Ermənistanla ticarət edək. Ermənistanla nə ticarət edə bilərsiniz, orada nə var, nə itirmisiniz orada? Daşları gedib almaq istəyirsiniz? Mən bu barədə sizin hökumət, dövlət başçıları ilə danışdım. Deyirlər, bizim tacirlər bildirirlər ki, onsuz da İran bizim malları alır və aparıb Ermənistanda satır, onlar qazanırlar, biz qazanmırıq. Bu, o qədər yanlış fikirdir ki, sizlərdən kimsə bunu hökumət başçılarının qafasına qoymusunuz, yanlış şeydir, onlar da bunu deyirlər. Mən sizə bildirmək istəyirəm ki, İranla Ermənistan arasında çox geniş ticarət aparılır. İran özü də çox böyük bazarlar axtarır, onların biri də Ermənistandır. İran Ermənistana elektrik, təbii qaz xətti çəkir. Ermənistan ilə İran arasında 40 kilometrlik sərhəd var, orada böyük bir körpü tikiblər. O körpüdən gündə 100-150 yük maşını İrandan Ermənistana keçir. İran öz mallarını Ermənistanda onsuz da satır. İrana nə lazımdır ki, gəlib Türkiyədən mal aparsın, Ermənistanda satıb pul qazansın? Bu, yanlış fikirdir. Bunu deyən adamlar gizlin, xəlvət, cürbəcür yollarla öz mallarını Ermənistanda özləri satırlar və hökumət başçılarına da deyirlər ki, bunu İran bizdən alıb, aparıb satır. Tamamilə yanlış fikirdir. Hətta sizin bəzi iş adamları oraya gedirlər və oradan bəzi iş adamlarını ticarət əlaqələri qurmaq üçün İstanbula, İzmirə gətirirlər.

Yaxud da bəzi adamlar Şərq tərəfdə– Qarsda, İğdırda deyirlər ki, gəlin buradan qapı açaq, ticarət edək, bu bizə xeyir verə bilər. Yaxud da son zamanlar Gürcüstandan bizə xəbər verdilər ki, Türkiyədən Gürcüstana müraciət olunub ki, Gürcüstanla Türkiyə arasında iki qapı var, birini də açaq. Gürcüstan bizdən soruşur ki, siz buna necə baxırsınız? Dedik ki, bu qapı haradadır, hansı yerdədir? Dedilər ki, o qapı Gürcüstanın ermənilər yaşayan sərhədindədir. Biz soruşduq ki, iki qapı sizə yetərlidirmi? Dedilər ki, tamamilə yetərlidir. Demək, Türkiyə üçüncü qapını kimlər üçün açmaq istəyir, oradan birbaşa Ermənistana keçmək üçünmü? Biz buna etiraz etdik.

Amma Gürcüstan hökuməti də bildirdi ki, bu, bizim təşəbbüsümüz deyil, Türkiyənin təklifidir. Bilmirəm, Ermənistanla həqiqətən ticarət etmək istəyən iş adamları bundan nə qədər para, xeyir, fayda götürəcəklər. Amma nə qədər götürsələr, heç vaxt bizim milli mənafeyimizi, məqsədlərimizi paraya qurban vermək olmaz. İş adamı iş görməlidir, para qazanmalı, öz işini inkişaf etdirməlidir. Amma heç vaxt öz milliliyini, milli mənafeyini qurban verməməli, qoymamalıdır ki, öz milli mənafeyinə zərər gəlsin. Yoxsa elə sən get qurdla, canavarla da, o birisi ilə də, təcavüzkarla da alver et ki, mənə qazanc lazımdır? Ona görə sizə müraciət edirəm, nəinki özümün, bütün Azərbaycan xalqının fikrini deyirəm. Türkiyə – Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir. Bunların hamısının olduğu yerdə gərək Türkiyədə iş adamları, dövlət adamları, adi bir vətəndaş da bilsin ki, Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir.



### "Ummayan yerdən niyə küsürəm?"

**Həmin mövzu ümummilli liderin Türkiyənin televiziya kanallarına verdiyi müsahibədə davam etdirilmişdi.**

Hacı Tosun ("Samanyolu" televiziyasının baş direktoru): Bir zaman Qarabağ məsələsi başlayanda televiziyamız yox idi. Onda Qarabağ hadisələrinə aid bir sərgi açdıq, xaricilər bu sərgiyə baxdılar. İndi ictimai rəy bu problemi sanki unutmuşdur. Biz arzu edirik ki, bu problem sülh yolu ilə həll edilsin. Zati-alilərinin də bunu dəfələrlə dilə gətirdiniz. Bu məsələ türk ictimai rəyində sanki unudulmuşdur.

**Heydər Əliyev:** Sizdə bəzi adamlar, qəzetçilər Yerevana, hətta Dağlıq Qarabağa da gedirlər, sonra gəlib burada təbliğat aparırlar ki, Ermənistanla da ticarət edək. Bir neçə ildən sonra deyəcəklər ki, Dağlıq Qarabağla da ticarət aparaq. Çünki sizin qəzet yazıb ki. "Dağlıq Qarabağ indi de-fakto bağımsızdır". Bu gün belə yazan on gündən sonra deyəcək ki, "bağımsız dövlət kimi gəlin onunla əlaqələr yaradaq"…

Rica edərdim ki, bu mövzu heç vaxt unudulmasın. Biz unutmuruq. Bilirsiniz, biz türk dünyası haqqında danışırıq, elədirmi? Burada da, Ankarada da, İzmirdə də hamımız böyük iftixar hissi ilə deyirik ki, türk dünyası qalxır, heç vaxt olmadığı kimi bir-birinə yaxınlaşır. Amma bu türk dünyası böyük bir yurddursa, orqanizmdirsə bunun yaralı yeri haradır? Yaralı yeri Azərbaycandır. Hesab edin ki, insanın bədənində harasısa yaralıdır – qolu, qıçı, ya qafası yaralıdır.

Qarabağ məsələsi, Ermənistanın Azərbaycana təcavüzü təkcə Azərbaycana qarşı olan təcavüz deyildir. Bunu dəfələrlə çox böyük ehtiram hissi ilə qeyd etmişəm, – böyük Mustafa Kamal Atatürk deyib ki, Azərbaycanın dərdi bizim dərdimiz, Azərbaycanın sevinci bizim sevincimizdir. Bu sözləri unutmaq lazım deyildir. Bu gün Azərbaycanın dərdi var, demək, bu, Türkiyənin də dərdidir. Türkiyənin təbliğat orqanlarında – televiziyalarında, qəzetlərində bu dərdin ağrısı unudulmamalıdır. Mən demirəm ki, bu dərd var, oturub gözümüzün yaşını tökək, – yox. Amma dərdi aradan götürmək üçün nə işlər görmək, nə etmək lazımdır və bu işlərin görülməsinə kim, nə üçün mane olur, – bunlar unudulanda hissiyyatlar korşalır. Hissiyyatlar korşalanda isə insan bəzən çox şeylərdə yanlışlıqlar buraxır.

**Yunus Şən:** Sayın Əliyev, bir neçə gündür Türkiyədəsiniz, görüşlər keçirdiniz. İstər iqtisadi, istər siyasi və digər sahələrdə düşündükləriniz nə dərəcədə gerçəkləşdi?

**Heydər Əliyev:** Bilirsiniz, istədiyim olsa da, olmasa da Türkiyədən daxilən həmişə rahatam. Çünki Türkiyəyə mənim və Azərbaycan xalqının o qədər məhəbbəti var ki, ola bilər, bir şeylə razı olasan, ya olmayasan, razı olmamağın da bu məhəbbəti pozmur. Deyirik ki, Türkiyə və Azərbaycan qardaşdırlar. Bu, adi söz deyil, həqiqətən, dərin məna kəsb edir. Ola bilər, bu qardaş o qardaşdan pul istəsin, o bunu verməsin. O bununla razı olmur, amma onun qardaşlıq hissiyyatı o qədər güclüdür, əzizdir ki, razı olmasa da, ola bilər, inciyir, ancaq sonra üstündən keçir. Bu, belədir. Başqa, yad adamdan, yaxud da bağlı olmadığın, yəni qan bağlılığı olmayan adamdan sən bunu istədin, – o vermədi və sən bu sözü dedin, o səninlə razı olmadı. Sən ondan həm küsürsən, həm də onunla düşmən olursan, tamam inciyirsən. Bu, tamamilə fərqli şeydir. İndi siz də deyirsiniz, dünən də dedilər ki, mən incidim. Bilirsiniz, dost dostdan inciyər. Azərbaycanda bir söz var, insan uman yerdən küsər. Bu söz sizdə varmı – uman yerdən küsərlər? Ummayan yerdən mən niyə küsürəm? Küsdüm – küsmədim, onun üçün də, mənim üçün də bunun əhəmiyyəti yoxdur, uman yerdən küsərlər. Azərbaycan Türkiyədən çox şey umur.

Bütün xalqımızda, o cümlədən, məndə də belə fikir var ki, Türkiyə böyük dövlətdir, böyük imkanlara malik olan dövlətdir. Türkiyə bizim qardaşımızdır, qan qardaşımız, can qardaşımızdır. Qan qardaşı olan da, Azərbaycanda yenə bir söz var, öz boğazından kəsib qardaşına verir. Lazımdır ki, xalqımızın milli adət-ənənələri dövlətlərimizin arasında da olsun. Yaxşı, 1992-1993-cü illərdə "Eksimbank" 250 milyon dollar kredit ayırıb, onun da cəmi 70 milyon dolları verilib. Bu 70 milyon dollara da o vaxt buğda alıb veriblər, çünki insanlar ac idi, buğda yox idi. Başqa şeyə verməyiblər. Əgər yatırıma veriblərsə, para götürüblərsə, gəl, parasını apar! Dərmana veriblər, – çünki bizim döyüşçülər qan içində idilər, buğdaya veriblər, başqa bir şeyə verməyiblər. İndi Türkiyə boğazımızdan tutub ki, bunu qaytar. Qaytara bilmirəm, 20 milyon dollar da faiz vermişəm. Mən bundan inciməyim?

### "Keçmişdə bir–iki xəta baş vermişdir"

**Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdən sonra jurnalistlər onlara maraqlı bir sualla müraciət etmişlər.**

**Sual:** Cənab Prezident, cənab Sədr, mən hər ikinizə eyni sualla müraciət etmək istəyirəm. Azərbaycan–Türkiyə münasibətlərində bir sıxıntı və ya problem olubmu, əgər olubsa, bu, aradan qaldırıldımı? Möhtərəm Heydər Əliyev Türkiyə ilə əlaqələrində hər hansı problem ilə üzləşdimi, cənab Ərdoğan Azərbaycan–Türkiyə əlaqələrini kifayət qədər möhkəm hesab edirmi?

**Heydər Əliyev:** Mən dedim ki, Türkiyə–Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Bunu bir daha təkrar edirəm. Amma problem deyəndə, problemsiz həyat olmur. Problem olur və biz onu həll edirik. Türkiyə ilə Azərbaycan arasında həll edilə bilməyəcək problem yoxdur, olmayıbdır. Keçmişdə bir-iki xəta baş vermişdir. Onlar da məlumdur. Onları yada salmaq istəmirəm. Ancaq bizim dövlətlər arasında, hökumətlər arasında həllini tapa bilməyən problem yoxdur. Problemləri biz birlikdə həll edirik.

**Rəcəb Tayyib Ərdoğan:** Mən də cənab Prezidentin sözləri ilə razıyam. Onu da əlavə etmək istəyirəm ki, keçmişdə olmuş xətaları gələcəyə aparmaq siyasətin xarakterinə ziddir. Siyasət əsla kin qəbul etməz. Xüsusilə qardaşlar arasında, bu, əsla mümkün deyildir. Biz bunların hamısının üstündən keçib gedirik.

(ardı var)

*Faiq SADIQOV,*
*Əməkdar jurnalist*

# Ulu öndərin 100 illiyi münasibətilə Buenos-Ayresdə konsert






**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi və Azərbaycanla Argentina arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü Argentinada qeyd olunub.**

Bu münasibətlə paytaxt Buenos–Ayres şəhərində konsert təşkil edilib. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dəstəyi ilə keçirilmiş tədbirdə Argentinanın dövlət və hökumət nümayəndələri, ictimai-siyasi xadimləri, bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbər və əməkdaşları, kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.

Azərbaycanın Argentinadakı səfiri Rəmzi Teymurov tədbirdə çıxış edərək müasir Azərbaycanın banisi Heydər Əliyevin həyatı və dövlətçilik ənənələrimizin formalaşdırılmasında əvəzsiz rolu barədə danışıb.

Daha sonra Azərbaycan–Argentina münasibətləri haqqında danışan R. Teymurov ölkələrimiz arasında dostluq əlaqələrindən və bu münasibətlərin siyasi, iqtisadi, mədəni və sair sahələrdə genişləndirilməsi üçün mövcud imkanlardan bəhs edib.

Sonra piano ifaçısı Səadət İsmayılovanın müşayiəti ilə Azərbayca n Dövlət Akademik Opera və Balet Teatrının direktoru, dramatik tenor, Azərbaycanın Xalq artisti Yusif Eyvazovun və Əməkdar artist Səbinə Əsədovanın ifalarında Azərbaycan bəstəkarlarının əsərləri yüksək məharətlə səslənib. Həmçinin Rəşad İbrahimov, Mirəli Seyidzadə və Təbriz Yusubovun ifalarında Azərbaycan milli musiqiləri təqdim edilib.

Azərbaycan musiqi xadimlərinin ifaları tədbirə dəvət olunmuş qonaqlar tərəfindən böyük məmnuniyyətlə qarşılanıb.

Tədbir Argentinanın kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.

*"Xalq qəzeti"*

# Yubiley müsabiqəsinin qalibləri mükafatlandırılıb



**Misir–Azərbaycan Dostluq Cəmiyyəti Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirləri davam etdirir. Cəmiyyətin binasında bu ilin iyulunda elan edilmiş "Azərbaycan və onun görkəmli şəxsiyyətləri" adlı məqalə müsabiqəsinin nəticələri açıqlanıb.**

Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov bildirib ki, Ulu öndər müasir Azərbaycanın Misir və ərəb dünyası ilə münasibətlərinin təməlini qoyub və çox əlamətdar haldır ki, bu günlərdə onun 100 illiyi Misirdə geniş şəkildə qeyd olunur.

Misir–Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirov Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə rəhbərlik etdiyi qurumun silsilə tədbirlər təşkil etdiyini bildirib.

Azərbaycan–Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ceyhun Məmmədov Ulu öndərin müsəlman ölkələri ilə əlaqələrin inkişafına xüsusi həssaslıqla yanaşmasını vurğulayıb. C.Məmmədov əlavə edib ki, bu gün iki ölkənin parlamentləri arasında da əlaqələr sürətlə inkişaf edir. Natiqlər müsabiqənin qaliblərini təbrik edib, onlara uğurlar diləyiblər.

Qeyd edək ki, müsabiqənin iştirakçılarına diplomlar və 6 qalibə pul mükafatı təqdim olunub.

*"Xalq qəzeti"*

# Xalqın bir əsrlik salnaməsi



*(əvvəli 1-ci səhifədə)*

Yazılası mövzular isə kifayət qədər idi. Ön cəbhədəki həmyerlilərimizin fərdi igidlikləri, Suvorov ordenli 416-cı Qırmızıbayraqlı Taqanroq, 223-cü Qırmızı Bayraqlı Belqrad, ikinci dərəcəli Suvorov ordenli 77-ci Simferopol atıcı Azərbaycan diviziyalarının... döyüş şöhrəti dillər əzbəri idi.

Azərbaycanın müharibəyə gedən 113 igid oğlu ən böyük mükafata – Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldü. 100 min nəfərə qədər əsgər və zabitimiz isə orden və medallarla təltif olundu.

Azərbaycanın gecə-gündüz dincəlmək bilmədən çalışan arxa cəbhə qəhrəmanlarının hünəri barədə də qəzet səhifələrində müntəzəm yazılar dərc olunurdu. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ümumxalq hərəkatına çevrilmişdi.

Azərbaycan neftçiləri müharibənin ilk ilində 23 milyon 541 min ton neft vermişdilər. Kolxozçular da onlardan geri qalmırdılar. Daha çox fərqlənənlər isə dövlət tərəfindən fəxri adlar, orden və medallarla təltif olundu. Qəzet bu qəhrəmanlar barədə müntəzəm olaraq yazılar verirdi.

"Kommunist"in səhifələrində daimi rubrikalar yaranmışdı: "Faşist işğalçılarına ölüm!", "Biz qalib gələcəyik!", "Dinlə, Azərbaycan, mərd oğullarını", "Cəbhə ilə arxanın mübariz dostluğu", "Qafqazı hitlerçilərin məzarına çevirək!" "Övladlarımızın layiqli əvəzçisi olaq!", "Cəbhə üçün, qələbəmiz üçün!", "Berlin üzərinə zəfər bayrağını sancacağıq!" , "Azərbaycan oğulları Vətən uğrunda vuruşmalarda"...

Yazıçı və şairlərimiz, jurnalistlərimiz tez-tez cəbhə xəttinə yollanır, döyüşçülərlə görüşüb onları düşmənlə mübarizədə yeni-yeni qələbələrə ruhlandırırdılar. Belə görüşlər sonradan qəzetin səhifələrində dərc olunan oçerklərə, reportajlara, şeirlərə çevrilərək böyük əks-səda yaradırdı. Mirzə İbrahimovun "Sarı sim" oçerki ("Kommunist" 25 iyul 1942-ci il), Məmməd Rahimin "Corab" şeiri (11 yanvar 1942), Rəsul Rzanın "Qafqaz" oçerki (23 fevral 1943-cü il), Abbas Zamanovun "Bacı" oçerki (27 mart 1943), Xasay Vəzirovun "Ölməz qəhrəman" oçerki (10 iyul 1943), Ənvər Məmmədxanlının "Dirilik çeşməsi" (21 yanvar 1944), Nurəddin Babayevin "Partizan qız", Yusif Əzimzadənin "O bizim fəxrimizdir", rəssam Mikayıl Abdullayevin "Mənim İlham mənbəyim" (1 yanvar 1944) ... sərlövhəli məqalələri buna misal ola bilər. Səməd Vurğun Faşist Almaniyası üzərində tarixi qələbəni qəzetin 9 may 1945-ci il nömrəsində böyük sevinc hissi ilə qələmə almışdı:

***Gül, ey nazlı Vətən –***
***Odlar torpağı!***
***Duz-çörək hazırla qəhrəmanlara.***
***Böyük bir ordunun***
***Zəfər bayrağı***
***Günəştək yayılır asimanlara.***

Müharibədən sonra onun vurduğu yaraları sağaltmaq lazım idi. Qarşıda sənaye və kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, müharibədən əvvəlki səviyyəni ötüb keçmək vəzifəsi dururdu. Azərbaycan zəhmətkeşləri də bu möhtəşəm vəzifənin yerinə yetirilməsi uğrunda qızğın mübarizəyə başlamışdılar. Həmin dövrdə "Kommunist" qəzetinin səhifələrində "Beşilliyi dörd ildə!" devizi altında geniş materiallar verilirdi. Sənayenin inkişaf etdirilməsi uğrunda fədakarlıq göstərən əməkçilər haqqında oçerklər, zarisovkalar, reportajlar... dərc olunurdu.

Qəzet əmək veteranlarının, zərbəçilərin qabaqcıl təcrübələrinin geniş yayılmasında böyük təşkilatçılıq məharəti göstərirdi. Azərbaycan kəndinin ilk Sosialist Əməyi qəhrəmanları Bəsti Bağırova, Şamama Həsənova, Qızqayıt Həsənova, Qüdrət Səmədovun hünərləri, iş üsulları barədə müntəzəm yazılar verirdi.




Qırxıncı illərin axırları və əllinci illərdə nəhəng tikintilərin getdiyi Mingəçevir su-elektrik stansiyasından, Daşkəsən mədənlərindən, Sumqayıtın inşasından, Neft daşlarından və digər dəniz neft yataqlarından qəzet müntəzəm məqalələr dərc edir və çox vaxt həmin obyektlərdə özünün müxbir postunu yaradırdı.

Müharibədən sonrakı dövr Azərbaycanda elmin, mədəniyyətin, maarifin sürətlə inkişaf etdiyi, nəhayət, zəhmətkeşlərin rifahının yaxşılaşmaqda olduğu illər idi. Bu mövzular qəzetin diqqətindən kənarda qalmırdı.

Qəzetin səhifələrində Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Mirzə İbrahimovun, Mehdi Hüseynin, Qara Qarayevin, Fikrət Əmirovun, Mikayıl Abdullayevin, Tahir Salahovun, Bülbülün, Rəşid Behbudovun, Qəmər Almaszadənin, Mikayıl Hüseynovun, Fuad Əbdürəhmanovun... həm yaradıcılıqlarından nümunələr verilir, həm də haqlarında yazılar dərc olunurdu.



Nazim Hikmət redaksiyanın əməkdaşları arasında

Nəhayət, Stalinin ölümündən sonra ölkənin siyasi həyatında baş verən yumşalma ovqatı Azərbaycana da çatdı. Tədricən gedən dəyişikliklərin ab-havası, şübhəsiz ki, qəzetin fəaliyyətində də hiss olunmağa başladı. Daha doğrusu, qəzet bu proseslərin önündə gedir və cəmiyyəti də ardınca aparmağa çalışırdı.

Azərbaycan pambıqçılarının qazandığı nailiyyətlərin sədası bütün ölkəyə yayılmışdı. Onların fədakarlıqları dövlət tərəfindən dəyərləndirilirdi. Daha çox fərqlənənlərdən iki nəfəri – Qasım İsmayılov rayonundan (indiki Goranboy) Bəsti Məsim qızı Bağırova və Qaryagin rayonundan (indiki Füzuli) Şamama Mahmudəli qızı Həsənova ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı oldular. Qəzet əmək qəhrəmanlarının fəaliyyətini işıqlandıran sanballı məqalələr dərc edirdi.

Tanınmış qələm sahiblərinin imzaları "Kommunist"in səhifələrində yenə tez-tez görünürdü. Rəsul Rzanın "Çiçəklənən respublika" (28 aprel 1950), Qılman İlkinin "Dəniz buruqlarında" (2 noyabr 1951), Osman Sarıvəllinin "Kolxozçu qız Yasəmən" (12 fevral 1949), Sabit Rəhmanın "Bakının işıqları" (1 yanvar 1953), Salam Qədirzadənin "Təməl daşları" (30 aprel 1959), Əli Qasımovun "Sevil" (17 dekabr 1961) oçerkləri, Rəfail Nağıyevin "İşıq" (24 fevral 1966), Əli Vəliyevin "Kəndimizə bahar gəlib" (29 mart 1966), Teyyub Qurbanın "Ayrılan deyildir ürəklərimiz" (30 dekabr 1962) sərlövhəli reportajları... maraqla qarşılanan yazılardan olmuşdur.

Altmışıncı illərin axırlarında xalqımız milli mətbuatımızın bayraqdarı olan "Kommunist" qəzetinin 50 illik yubileyini təntənəli şəkildə qeyd etmişdir. 1969-cu il sentyabrın 18-də Məşədi Əzizbəyov adına Dövlət Dram Teatrında keçirilən təntənəli mərasimdə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin iştirakı tədbir iştirakçıları tərəfindən böyük coşğu ilə qarşılanmışdı.

Ulu öndər həmin tədbirdə dərin məzmunlu nitq söyləmişdir. Həmin nitq həm də ona görə dəyərli idi ki, ümummilli lider onu doğma Azərbaycan dilində söyləmişdir. O dövrdə müttəfiq respublikaların rəhbərləri belə tədbirlərdə yalnız rus dilində çıxış edirdilər. Ümummilli lider həmin qadağaları pozaraq ilk dəfə ana dilində danışmışdır. Heydər Əliyev nitqinə belə başlamışdır:

– Əziz yoldaşlar! Bu gün biz respublika qəzeti "Kommunist"in birinci nömrəsinin çapdan çıxmasının 50 illiyini qeyd edirik. Bu yubiley böyük siyasi hadisədir. Sovet Azərbaycanının bütün mətbuatının bayramıdır. Bütün respublika zəhmətkeşlərinin fərəhli günüdür. Partiya və hökumət "Kommunist" qəzetinin xidmətlərini yüksək qiymətləndirərək, onu Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etmişlər. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, Respublika Ali Sovetinin Rəyasət Heyəti və Nazirlər Soveti "Kommunist" qəzeti redaksiyasının kollektivini, fəhlə və kəndli müxbirlərini, bütün oxucularını bu şərəfli mükafat münasibətilə səmimi-qəlbdən təbrik edir...

Təpədən dırnağa qədər silahlanmış hitlerçi quldur dəstələri ölkəmizə basqın etdikdə və Böyük Vətən müharibəsi başlandıqda isə "Kommunist" qəzeti müharibənin ilk günlərindən öz kəsərli silahını azğın düşmənə yönəltmişdi. O günlər qəzetin hər nömrəsi düşməni döyürdü. Onun hiddət dolu sətirləri Azərbaycanın mərd övladlarını döyüşə çağırır, onları faşizm üzərində tam qələbə çalmağa ruhlandırırdı. Cəbhədən alınıb qəzetin səhifələrində dərc olunan xəbərlər arxa əməkçilərinin qoluna onqat qüvvət verir, onları sovet xalqının müqəddəs qələbəsi naminə fədakar əməyə ruhlandırırdı.

Qəzet müharibədən sonrakı dövrdə də öz vəzifəsini şərəflə yerinə yetirirdi. İndi artıq onun səsi Mingəçevirdən, Neft Daşlarından, Sumqayıtdan gəlirdi. O, xalqla birlikdə yüksək binalar ucaldır, neft və qaz kəmərləri çəkir, metro tikir, yazıçılarla və mədəniyyət xadimləri ilə birlikdə ədəbiyyatımızı və incəsənətimizi zənginləşdirirdi.

İzin verin, "Kommunist" qəzeti redaksiyasının kollektivini, fəhlə və kəndli müxbirlərini, onun bütün oxucularını, qəzetin 50 illiyi və onun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunması münasibətilə bir daha ürəkdən təbrik edim, Vətənimizin səadəti üçün yaradıcı əməkdə onlara böyük müvəffəqiyyətlər arzulayım.

***P.S. Qəzetin 50 illik yubileyi üzərində bir qədər geniş dayanmağımız səbəbsiz deyil. Həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) də 50 illik yubileyi qeyd olunub. Amma 42 gün sonra, dəqiq desək, 1969-cu il noyabrın 1-də. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev həmin tədbirdə də iştirak edib və ana dilimizdə nitq söyləyib. Universitetin yubileylərində buraxılmış kitablarda, BDU rəhbərlərinin mətbuatdakı məqalələrində iddia olunur ki, Heydər Əliyev respublika rəhbəri seçiləndən sonra ilk dəfə onların yubileyində iştirak edərək ana dilində nitq söyləyib. Qəribədir ki, çox da uzaq keçmişdə olmayan bu səhvi tarixçilər də, həmin tədbirlərin iştirakçısı olan ziyalılar da təkrarlayırlar. "Xalq qəzeti"nə göndərilən həmin məqalələrdə biz düzəlişləri edirik, başqa qəzetlərdə və kitablarda isə həmin səhv tirajlanır. Arzu edərdik ki, ulu öndərin həyat və fəaliyyətini işıqlandıranlar, həmçinin BDU-nun tarixini yazanlar bu məsələdə diqqətli olsunlar.***

(ardı var)

**Qüdrət PİRİYEV,**
**"Xalq qəzeti"**



# “Polietilen bəlası” – ekoloji epidemiya

## *60-dan çox ölkə plastik qablardan istifadəni məhdudlaşdırıb*

**Təqribən, yarım əsr əvvəl dünyada plastik qabların və polietilen torbaların istehsalına başlandıqda insanlar bunu rahatlıq kimi qarşılayaraq ondan istifadəyə getdikcə daha çox üstünlük verməyə başladılar. Bu isə maya dəyəri daha ucuz olan, hazırlanmasında saf xammaldan yox, məişət tullantılarından istifadə edilən və daha sərfəli qiymətə başa gələn polietilen torbaların istehsalının ilbəil artmasına səbəb oldu. Bununla da, ətraf mühiti zərərli tullantılarla çirkləndirən daha bir ekoloji terror mənbəyinin əsası qoyuldu.**



Statistik məlumatlara görə, hazırda dünyada hər dəqiqədə 1 milyon polietilen torba zibil qutusuna atılır. Hətta bəzi hallarda həmin torbalar hara və necə gəldi, atılır. Çoxları isə bunun ətraf mühitə vurduğu ziyanın fərqində deyil. Belə ki, ekoloqların araşdırmalarına görə, polietilenin çürüməsi torpaqda 800 ilə, dənizdə isə 400 ilə başa gəlir. Bütövlükdə isə, polietilen torbaların qalıqlarının təbiətdə tamamilə yox olması üçün ən azı min il lazım gəlir. Mütəxəssislərin hesablamalarına görə, okean sularında hərəkət edən gəmilərdən ildə 4 milyon kiloqrama qədər polietilen torba dənizə atılır. Bunlar da dənizin dibinə çökərək su mənbələrinin çirklənməsinə səbəb olmaqla yanaşı, canlı aləmin tədricən məhvinə gətirib çıxarır.

Artıq bir neçə ildir ki, dünya plastik və polietilen məhsullardan istifadənin azaldılmasına start verib. Hələlik isə bir sıra dünya ölkələrində çıxış yolu kimi plastik torbalarla alış-verişə davam edən obyektlərin vergiyə cəlb olunmasına, bəzilərində isə pulla təklifinə başlanılıb. Məsələn, Danimarka, Bolqarıstan, İspaniya və digər Avropa ölkələrində polietilen torbalardan istifadə vergiyə cəlb edilir, Hollandiya, İsveç Xorvatiya, Sloveniya, Latviya, Tayvan, Kolumbiya, Mozambik və Cənubi Afrikada pulla təklif edilir. İtaliya, Fransa, Rumıniya və Litvada isə plastik qablardan və polietilen torbalardan istifadə tamamilə qadağan edilib.

Bütövlükdə isə, hazırda dünyanın 60-dan çox ölkəsində plastik torbalardan istifadə ilə bağlı qaydalar müəyyənləşdirilib. Bundan da məqsəd ilk baxışdan istifadəsi rahat görünən, amma ətraf mühitə və insan sağlamlığına zərəri bundan qat-qat narahatlıq doğuran belə məhsullardan istifadəni azaltmaqdan və ya buna tamamilə son qoymaqdan ibarətdir. Amma görünən budur ki, plastik və polietilenlərin törətdiyi ekoloji terrorla mübarizə, heç də, asan başa gəlməyəcək, bundan tam xilas olmaq üçün uzun vaxt lazım gələcək.

Ölkəmizdə də polietilen torbaların istifadənin azaldılması ilə bağlı bir neçə il əvvəl qərar verilsə də, prosesə başlamaq xeyli vaxt aparıb. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Nazirlər Kabineti polietinlərin ətraf mühitə mənfi təsirlərini azaltmaq məqsədilə 2021-ci il fevralın 2-də mağaza kassalarında məhsulların yığılması üçün nəzərdə tutulan, ölçüsü 15-50 mikron olan polietilen torbalar, ayrıca məhsul növü kimi pulla satışı ilə bağlı qərar qəbul edib. Cari ilin fevral ayının 15-dən etibarən isə ölkəmizdəki iri ticarət şəbəkələrində və marketlərdə polietilen torbaların pulla satışına başlanılıb. Hazırda bu torbaların qiyməti ölçüsünə görə 3-5 qəpik arasında dəyişir. Ekoloji təmiz xüsusi torbalar isə daha yüksək qiymətə təklif edilir.

Hökumətin qərarına əsasən ölkəmizin irili-xırdalı ticarət şəbəkələrində satılan polietilen torbalar ayrıca məhsul növü kimi kassa çekində öz əksini tapmalıdır. Buna əməl etməyən ticarət obyektlərini isə 6 min manata qədər cərimə gözləyir. Müşahidələr göstərir ki, hazırda marketlərdə bu qaydaya riayət edilsə də, bir çox təsərrüfat mağazalarında, geyim dükanlarında və digər ticarət mərkəzlərində polietilen paketlərin kütləvi, özü də heç bir ödəniş həyata keçirilmədən istifadəsi davam edir. Ötən 6 ay ərzində ölkəmizdə polietilen torbaların istifadəsi bir qədər azalsa da, ətraf mühitin bu cür zərərli tullantılardan xilası ilə bağlı görülən işləri qənatbəxş hesab etmək qətiyyən mümkün deyil.

Bu da başadüşüləndir. Çünki qadağan edilmiş belə malları əvəz edəcək alternativlər, demək olar ki, yoxdur. Yəni ölkəmizdə plastik qabların və polietilen torbaların alternativlərinin kütləvi istehsalına, hələlik, başlanılmayıb. Düzdür, son zamanlar marketlərdə çörək və bulka məmulatlarının satışı zamanı kağız torbalardan geniş istifadə olunsa da (həm də onlar üçün heç bir məbləğ tələb olunmur), bu, heç də polietilen torbalardan istifadəni azaltmağa yetərli deyil.

Deməli, yeganə, həm də düzgün çıxış yolu ekoloji cəhətdən daha təmiz kağız və parçadan olan torbaların istehsalına nail olmaqdan ibarətdir. Bunun üçün isə bir sıra stimullaşdırıcı tədbirlərdən istifadə edilməklə özəl sektorda bu sahəyə marağı artırmaq lazımdır. Yəni ölkəmizdə alternativ məhsulların istehsalının təşkili hökumət və biznes qurumlarının birgə fəaliyyətindən asılıdır. Əks təqdirdə, 3-5 qəpiyin müqabilində təbiəti və insanlarımızı bu zərərli tullantıların mənfi təsirlərindən qorumaq mümkün olmayacaq.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı ekspert**

Statistikaya görə, hər il dünyada 500 milyon ton plastik məhsul istehsal olunur. Plastik məhsulların sırasında xüsusi çəkiyə malik olan polietilen torbaların isə dünyada çox böyük dövriyyəsi var. Hətta bu dövriyyə 100 milyard dollarla ölçülür. Polietilen torbaların istifadəsi praktiki olsa da, bu böyük ekologi və iqtisadi fəsadlar yaradır. Hər il dünyada, təqribən, 4 trilyon paket istifadə olunur, hər dəqiqədə isə 1 milyon polietilen torba zibil qutusuna atılır. Onlar isə ətraf mühitdə uzun müddət qalır və çürümür.

Araşdırmalar nəticəsində məlum olub ki, plastik qablar hər il 120 milyon ton əlavə tullantının yaranmasına səbəb olur. Bu da ondan irəli gəlir ki, hazırda dünyada plastik tullantıların yalnız 20 faizi təkrar emal olunur. Ən yaxşı halda isə, bir sıra ölkələrdə plastik tullantılarının 60-70 faizi təkrar emala yönəldilir. Eyni zamanda, okeana atılan tullantıların da 90 faizi məhz plastik məhsulların payına düşür. Təkcə onu qeyd etmək kifayətdir ki, hər il okeanlara 150 ton plastik tullantılar atılır. Bunun nəticəsidir ki, hazırda plastik və polietilen qablaşdırılmaların dünya okeanında böyük adaların yaranmasına səbəb olub.

Bu məhsulların utilizasiyası da böyük maliyyə xərcləri tələb edir. Dünyanın bir çox inkişaf etmiş ölkələrində artıq bir müddətdir ki, bu cür torbaların və plastik qabların dövriyyəsinə qadağa qoyulub. Ümumilikdə isə, 40 ölkədə plastik məhsulların istifadəsi məhdudlaşdırılıb. Bəzi ölkələrdə hətta turistlərin özləri ilə polietilen məhsullar gətirilməsinə belə, icazə verilmir.

2022-ci ildə Azərbaycanda istehsal olunan plastik qablaşdırma məhsullarının həcmi 2010-cu illə müqayisədə, təqribən, 5 dəfə artıb. Eyni zamanda plastik qabların idxalı da dəfələrlə çoxalıb. Ölkəmizdə hər il adambaşına orta hesabla 24 kiloqram plastik tullantı yaranır ki, bu da kifayət qədər yüksək rəqəmdir. Məlum olduğu kimi, bu ilin fevral ayından etibarən Azərbaycanda polietilen torbaların satılmasına başlanılıb. Bu da ötən müddətdə onların dövriyyəsinin 3 faiz azalmasına səbəb olub. Belə ki, istehlakçılar və satıcılar həmin torbaların istifadəsinə daha qənaətlə yanaşırlar. Bu isə onların ümumi istifadəsinin azalmasına gətirib çıxarır.

Yeri gəlmişkən, Azərbaycanda əvvəllər bu cür paketlərin ekologi cəhətdən alternativləri mövcüd olmuşdur. Bunlara kağız və parçadan olan paketləri, tor formasında çantaları, eləcə də həsirdən toxunmuş zənbilləri misal götərmək olar. Düşünürəm ki, hazırda bu cür torbaların istehsalını təşkil etməklə yeni sahibkarlıq fəaliyyətinin inkişafına töhfə vermək olar. Bu, həm milli brendlərin yaranmasına, həm də regionlarda məşğulluğun təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir edə bilər.

Elə polietilen torbaların və plastik qabların istifadəsinin məhdudlaşdırılması da yeni alternativ məhsulların istifadəsini zəruri edir. Bu isə istehlak bazarında ekoloji təmiz məhsula tələbat formalaşdırmaqla yanaşı, yerli sahibkarlara yeni istehsal sahələri açmağa imkan yaradar.

# Şamaxıda dolu vuran üzüm bağına dəymiş zərər ödəniləcək

## *1400 belə təsərrüfatın müraciətinə də baxılır*

**Azərbaycanda qeyri-sabit hava şəraiti kənd təsərrüfatına ciddi zərər vurmaqdadır. Cari ilin may ayında dolu yağması nəticəsində Şamaxıda yerləşən böyük üzüm sahəsinə ciddi ziyan dəyib.**

Aqrar Sığorta Fondundan verilən məlumata görə, təbiət hadisəsi nəticəsində zərər çəkən üzüm bağı sığortalı olduğu üçün dəymiş ziyan fond tərəfindən ödəniləcək. Bu məqsədlə hadisə barədə fonda məlumat daxil olan kimi mütəxəssislər və müstəqil aqrar sığorta ekspertləri sahəyə gələrək ilkin araşdırma aparıb, dəymiş zərərin məbləğinin hesablanmasını həyata keçiriblər.



Qeyd olunub ki, iyul ayında isə Aqrar Sığorta Fondunun mütəxəssisləri və müstəqil aqrar sığorta ekspertləri sahəyə gələrək yekun ekspertiza keçiriblər. Fonddan verilən məlumatda, həmçinin bildirilir ki, araşdırma prosesinə yerli və Türkiyədən gələn ekspetlər cəlb olunub. Zərərin məbləği dəqiqləşəndən sonra təsərrüfata dəyən zərərin ödənilməsinə başlanılacaq.

Xatırladaq ki, sözügedən təsərrüfat bundan əvvəl də – 2018-ci ildə dolunun təsirinə məruz qaldığından böyük zərərlə üzləşib. Bunu nəzərə alaraq ölkədə aqrar sığortanın tətbiqindən sonra təsərrüfat mütəmadi olaraq sığortalanıb. Yeri gəlmişkən, dolu Azərbaycanda əkin sahələrinə ən çox zərər yetirən təbiət hadisələrindəndir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ilin ilk 6 ayında Aqrar Sığorta Fonduna əkin sahələrinə dəyən zərərlərlə bağlı 7 min müraciət daxil olub ki, bunun da 1400-ü və ya hər 5 müraciətdən 1-i dolu hadisəsi ilə əlaqədardır. Ümumilikdə isə, son 3 ayda qeyri-sabit hava şəraiti ilə bağlı fonda edilən müraciətlərin sayı 1000-i keçib. Hazırda həmin təsərrüfatlara dəymiş zərər qiymətləndirilir və bu proses başa çatdıqdan sonra kompensasiya ödənişlərinə başlanılacaq. Bütün bunlar isə ölkəmizdə 2020-ci ildən tətbiq edilən aqrar sığortanın əhəmiyyətini bir daha təsdiq edir.

Xatırladaq ki, hazırda aqrar sığorta 41 bitki növü üzrə 29 riskdən təminat verir. Bura təbiət hadisələri–fırtına, qasırğa, sel, subasmalar, daşqınlar, eləcə də üçüncü şəxslərin hərəkətləri, bitki xəstəlikləri, zərərvericilər və insan amilindən asılı olmayan müxtəlif hadisələr aiddir. Fonddan bildirilib ki, aqrar sığorta güzəştli şərtlərlə təqdim edilir. Belə ki, fermerlərə dəstək məqsədilə sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.

Yeri gəlmişkən, bu ilin ötən 7 ayında ölkəmizdə kənd təsərrüfatı bitkilərinin sığorta yığımları 11 milyon 85 min manat təşkil edib. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu göstərici 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,5 dəfə və ya 6 milyon 692 min manat çoxdur. Xatırladaq ki, ötən ilin yanvar-iyul aylarında kənd təsərrüfatı bitkiləri üzrə sığorta yığımları 4 milyon 392,5 min manat təşkil edib.

***“Xalq qəzeti”***

**Azərbaycanın kompleks qazma və quyu xidmətlərinin idarə edilməsi şirkəti “SOCAR AQŞ” MMC-nin törəmə müəssisəsi olan “SOCAR AQŞ Sondaj Mühendislik Sanayi ve Ticaret A.Ş” (“SOCAR AQŞ Türkiyə”) “Türkiyə Petrolları Anonim Ortaqlığı” (TPAO) şirkəti ilə qazma xidmətləri üzrə mühüm müqavilə imzalayıb.**

# Azərbaycan və Türkiyənin qazma xidmətləri əməkdaşlığa başlayır



Müqaviləyə əsasən, “SOCAR AQŞ Türkiyə” qardaş ölkənin cənub-şərq bölgəsində quruda yerləşən dörd neft quyusu üçün qazma xidmətləri göstərəcək. Bu müqavilə enerji sektorunda strateji tərəfdaşlığı təmsil edən hər iki qurum üçün mühüm nailiyyətdir. Sazişin Türkiyənin ümumi neft hasilatını dəstəkləyəcəyi və regionda məşğulluğu artıracağı gözlənilir.

Əlamətdar hadisəni şərh edən “SOCAR AQŞ”nin baş direktoru Samir Mollayev bildirib ki, “SOCAR AQŞ Türkiyə” zəngin təcrübəsindən, müasir texnologiyalardan istifadə edərək layihə zamanı təhlükəsiz və səmərəli fəaliyyət göstərməyi və maksimum məhsuldarlığı təmin etməyi qarşısına məqsəd qoyub.

“SOCAR AQŞ Türkiyə” və TPAO arasında olan bu tərəfdaşlığın regionun enerji sənayesinin inkişafını dəstəkləmək üçün qarşılıqlı öhdəliyə əsaslandığını vurğulayan “SOCAR AQŞ Türkiyə”nin meneceri Famil Xələfov isə deyib ki, əldə olunmuş texniki təcrübədən istifadə hər iki tərəfə uğur gətirəcək, uzunmüddətli əlaqələri inkişaf etdirməyə töhfə verəcək.

***“Xalq qəzeti”***

# Qeyri-neft-qaz istehsalı 6,5 faiz çoxalıb

**2023-cü ilin yanvar-iyul aylarında ölkəmizin neft-qaz sektorunda məhsul istehsalı 2,4 faiz azalıb. Sənayenin qeyri-neft-qaz sektorunda isə istehsal 6,5 faiz artıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, sənaye məhsulunun 69,1 faizi mədənçıxarma, 25,7 faizi emal, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

***“Xalq qəzeti”***



# Bakı-Tbilisi-Qars dəmir yoluna alternativ marşrut

**“ADY Konteyner” MMC biznes müştərilər üçün alternativ transkontinental marşrut təqdim edir. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətindən “XQ”yə verilən məlumata görə, Bakı-Tbilisi-Qars dəmir yolu xəttində aparılan təmir-bərpa işləri yekunlaşanadək yeni dəmir yolu-dəniz əlaqəsi təchizat zəncirinin bütövlüyü təmin ediləcək.**

Səhmdar Cəmiyyətinin törəmə şirkəti olan “ADY Konteyner” MMC Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsində aparılan təmir-bərpa işləri ilə əlaqədar yüklərin təyinat stansiyalarına vaxtında çatdırılmasını təmin etmək məqsədilə biznes müştərilərə alternativ marşrut təqdim edir. Belə ki, yeni marşrut ilə yüklər gəmilərlə Türkiyənin Dərincə, Mersin, Alsancaq, Marport və Evyap limanlarından Gürcüstanın Poti və Batumi limanlarına çatdırılacaq. Limanlarda konteynerlər platformalara aşırılaraq dəmir yolu vasitəsilə Bakı limanına daşınacaq. Daha sonra yük Qazaxıstanın



Aktau və Türkmənistanın Türkmənbaşı limanlarına, oradan da dəmir yolu vasitəsilə Orta Asiyadakı təyinat stansiyalarına göndəriləcək.

***“Xalq qəzeti”***

# Priqojinin təyyarə qəzası

## Qiyamçı hərbi rəhbərin müəmmalı ölümü ilə bağlı versiyalar

*(əvvəli 1-ci səhifədə)*

Maraqlıdır ki, avqustun 23-dəki təyyarə qəzasından bir gün əvvəl Y.Priqojin çoxdandı görünmədiyi sosial şəbəkədə peyda olmuşdu. Onun Afrikada olduğu bildirilirdi. Belə qənaət formalaşmışdı ki, "Vaqner" "qara qitə"də hansısa əməliyyat keçirir. Tam mümkündür. Çünki şirkətin yalnız Rusiya dövlətinin müəyyənləşdirdiyi xətt üzrə getmədiyi məlumdur. Onun özünün də dünyanın müxtəlif bölgələrindəki konfliktlərə qatılmaq təcrübəsi var. Əlbəttə, bu təcrübələrdə Rusiyanın maraq və mənafeləri nəzərə alınmaya bilməz.

Adından da görünür – özəl hərbi şirkət. Yəni, müəyyən maliyyə vəsaiti müqabilində hərbi xidmət göstərə bilən qurum. Bəs, necə oldu ki, avqustun 22-də Afrikada olduğu bildirilən Priqojin bir gün sonra, belə demək mümkünsə, slavyan səmasında canını tapşırdı. Ola bilərmi ki, kimlərsə yenidən Priqojini "diriltmək" fikrinə düşmüşdülər, bir başqaları isə onu gömdü? Bu kimi suallar və suallar ətrafındakı mülahizələr gündəmdədir və hesab edirik ki, qarşıdakı müddətdə onların sayı artacaq.

***

"Putinin aşpazı" adlandırılmış Y.Priqojin kim idi? Əvvəlcə buna diqqət yetirək. Əlbəttə, onu maraqlı fiqur saymaq mümkündür. Aşpazın birdən-birə peşəkar hərbçiyə çevrilməsi, əslində, Rusiyanın mahiyyəti qədər gözlənilməz sayıla bilər. Deməli, Priqojin əsl rus idi. O, özünün "Telegram" kanalında ölkənin müdafiə naziri Sergey Şoyqunu və baş qərargah rəisi Valeri Gerasimovu Ukraynadakı uğursuzluq səbəbindən ittiham edib təhqirlərə, alçaldıcı sözlərə "qonaq edəndə" də əsl rus obrazında idi. Xalq ona "mujik" kimi yanaşırdı.

Bir gün "mujik" yuxudan oyanıb Moskva üzərinə yürüşə çıxanda rəğbətlə qarşılandı. Hətta, rəğbət Prezident Vladimir Putinin müraciətindəki sərt ritorikanın və "Vaqner"in davranışını qiyam kimi qiymətləndirməsinin kölgəsində qalmadı. Hər kəs elə bilmədi ki, Ukrayna müharibəsinə qədər "Konkord" şirkətlər qrupunun sahibi və Prezidentin dostu sayılan Priqojin qiyama cəhd göstərən vətən xainidir. Təbii ki, bunu düşünməmək üçün başqa səbəblər də var idi və onlardan də söz açacağıq.

***

Birincisi, 1961-ci il təvəllüdlü Priqojin Sankt-Peterburq şəhərində doğulmuşdu. O şəhərdə ki, Rusiya liderinin siyasi karyerası baxımından çıxış nöqtəsi sayılır.

İkincisi, "Vaqner"in indi sabiq olan rəhbərinin restoranları və iaşə obyektləri Putinin xaricdən gəlmiş yüksək səviyyəli qonaqlarının iştirak etdiyi şam yeməklərinə evsahibliyini gerçəkləşdirirdi. Elə "Putinin aşpazı", "Prezidentin dostu" kimi deyimlər də bundan qaynaqlanmışdı. Nəzərə alaq ki, yemək işini hər adama etibar etmək olmaz. Deməli, Priqojin etibar qazanmışdı.

Üçüncüsü, Priqojinin etibar qazanmaq yolu heç də rəvan olmamışdı. O, 1981-ci ildə 12 il müddətinə azadlıqdan məhrum edilmişdi. 1990-cı illərdə həbsdən azad edildikdən sonra isə doğulduğu şəhərdə restoran açmışdı. Tədricən sahibkar kimi uğurlar qazanmağa başlamış bu şəxsin 2019-cu ildəki sərvəti 14,6 milyard rubl olmuşdu. Bundan əvvəl isə yəni, 2016-cı ildə adı Sankt-Peterburqun 30 ən nüfuzlu adamı siyahısına daxil edilmişdi. Əlbəttə, yüksək status Priqojini 2016-cı ildən ABŞ-ın, 2020-ci ildən Avropa İttifaqının və Böyük Britaniyanın, 2022-ci ildən Avstraliyanın, Kanadanın, Yeni Zelandiyanın və Yaponiyanın sanksiyaları altına düşməkdən sığortalaya bilməmişdi.



***

Vətən xainləri bağışlanmır. Bu mənada iyunun 23-dən başlanmış və bir neçə gün davam etmiş "Vaqner" qiyamı"ndan sonra Priqojinin bağışlanması maraqlı idi. Hər şey çox sadə şəkildə baş vermişdi. Belarus Prezidenti Aleksandr Lukaşenko araya girmiş, mübahisəyə son qoymuşdu. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov isə bildirmişdi ki, "Vaqner" təmsilçilərinin vətən qarşısındakı əvvəlki xidmətləri nəzərə alınaraq, onlar cinayət məsuliyyətinə cəlb olunmayacaqlar. Hər halda Prezident Putin sonradan Priqojini qəbul etdi. Vətən xaininə belə etimad göstərilməzdi.

Yayılan xəbərlərdə Priqojinin başının dəstəsi ilə Belarusa getdiyi və orada nüvə obyektini mühafizə etdiyi bildirildi. Hamı elə sanırdı ki, "Vaqner" rəhbəri Lukaşenkonun himayəsi altındadır. Avqustun 22-də onun sosial şəbəkədə Afrikada çəkildiyi iddia edilən şəklinin yayılması həm də buna görə təəccüblü görünə bilərdi. Yeri gəlmişkən, avqustun 23-dəki təyyarə qəzasının "Vaqner" qiyamı"ndan düz iki ay sonra baş verməsi də təəccüblüdür. Deməli, 23 rəqəmi Priqojin üçün düşərli deyilmiş. Amma yalnız bunumu düşünək? Başqa hansısa ələhiddəlik varmı? Cavab vermək çətindir...

***

23 iyun qiyamından sonra Priqojinin bağışlanıldığını fikirləşənlər üçün bir vacib məqam var. Bu versiyanı ortaya atanlar bildirirlər ki, "Vaqner" rəhbərinin etdiklərində heç bir pis əməl yoxdur. Onlar Putinin dostu kimi tanınan şəxsin, əslində, dövlət başçısı üçün dost xidməti reallaşdırdığı qənaətindədirlər. Yəni, qiyam oyun imiş. Putin oyun quraraq üsyankar Priqojinə kimlərin qoşulacağını müəyyənləşdirmək istəyirmiş. Axı, Ukrayna müharibəsinin ona qarşı müxalif cəbhə formalaşdırdığı gizli deyil. O cəbhənin təmsilçiləri kimlər idi? Priqojin "Telegram manifestləri"ndə bələlərini də hədəfə alırdı. Övladlarını ordudan yayındıranları, orduya ayrılmış pulları mənimsəyənləri və s. Həmin vaxt elə qənaət formalaşırdı ki, müharibə üçün əllərini cibinə atmaq istəməyən həmin şəxslər Putini devirməyə qol çırmayıblar və Priqojinin üsyan görüntülü dost xidməti bu təbəqəni ortaya çıxarmaq məqsədli testdir. Özü də uğurlu test. Yoxsa, Putin niyə onu bağışlasın ki? Hər halda, Lukaşenko da mənasız işə qol qoyacaq adam deyil. Nə də Putinin yazdığı yazını pozacaq adamdır.

***

Priqojinin təyyarə qəzasında ölümü başqa versiyaya da yol açır. Bu versiya onu Putinin bağışlamadığına və cəzasını verdiyinə dair hazırda populyar olan deyimləri sıradan çıxarır. Bir halda ki, "Vaqner" şefi haqqında söz açdığımız dost xidmətini göstərdi və nəticə etibarilə Rusiya lideri kimin ona qarşı dönük olduğunu müəyyənləşdirdi, deməli, bu xidmət Ukrayna müharibəsinə də töhfədir.

O müharibəyə ki, hazırda Qərbin Ukraynaya dəstək mövzusunda müəyyən mənada aciz duruma düşdüyü görünməkdədir. O da görünür ki, Qərb Ukrayna rəhbərliyini vəziyyətlə barışmağa vadar edən çağırışlar səsləndirir. Ancaq iki ay əvvələdək bu cür durum yox idi. Belədə Priqojinin müəmmalı ölümü ilə bağlı yeni versiya irəli sürənlər bildirirlər ki, əslində, təyyarə qəzası Rusiyaya gözdağıdır. Bir halda ki, Moskvada da partlayışlar baş verir, nə üçün içərisində Ukrayna müharibəsində böyük iş görmüş hərbi qruplaşmanın rəhbərinin olduğu hava gəmisi partladılmasın? Nəzərə alaq ki, qəhrəmanı, "mujik"i partladanlar, digərlərinə qarşı da eyni əməli törədə bilərlər. Hər halda, Priqojinin uçduğu təyyarənin qorunaqsız olduğunu fikirləşmək sadəlövhlükdür. Onun qəzalı vəziyyətə elə-belədən düşdüyünü iddia etmək də, həmçinin.



***

Sonda daha bir versiya üzərində dayanaq. Bu versiyaya görə, Priqojin, həqiqətən də, xaindir və cəzasını üzərindən iki ay keçdikdən sonra aldı. Sual olunur: nə üçün Putin üsyankarın cəzasını həmin an vermədi? Verə bilməzdimi? Bu suallara cavab axtaranlar Rusiya liderinin "Vaqner" qiyamı" ilə bağlı son dərəcə sərt fikirlərlə zəngin müraciəti üzərində dayanırlar. Onlar bildirirlər ki, Priqojin vəziyyəti bir qədər də dramatikləşdirsəydi, sərtlik özünü mütləq göstərəcəkdi. Amma Yevgeni Lukaşenkonun sözünə qulaq asdı və avantürasından əl çəkdi. Əlbəttə, bu, Putini onun cəzasını nə zamansa vermək fikrindən daşındıra bilməzdi.

Bu yerdə gözlər önündə keçmiş "KQB"şnik, əsl siyasət adamı Putinin obrazı canlanır. Haqqında söz açdığımız versiyaya inansaq, Rusiya Prezidenti Priqojini həmin an cəzalandırmağa, qiyam ritorikasını böyütmək istəmədi. Digər tərəfdən, tutalım, qiyam varsa, bütövlükdə, "Vaqner" dağıdılmalı idi. Buna isə ehtiyac yoxdur.

Yazılmamış qanunlara görə, vətən xainləri barədə ölüm hökmü çıxarılır. Rusiyanın yazılmış qanunlarında isə ölüm hökmü yoxdur. "Mujik"in həbsə atılmasına gəldikdə, heç şübhəsiz, bu, yüksək səslənə bilərdi və onun şəxsiyyəti daha da kultlaşardı. Habelə, məsələ istər-istəməz siyasiləşərdi. Putinə yeni böyük çəkili siyasi məhbus lazım deyildi. Ona görə Priqojin elə təyyarə qəzasında həyatını itirməli idi. İtirdi və cəzasını aldı. Onun ölümü isə bunt fikrinə düşənlər üçün siqnaldır. Priqojin kimi biri aradan götürülürsə, digərlərini də eyni aqibətlə üzləşdirmək su içimi kimi bir şeydir.

**Ə.RÜSTƏMOV,**
**"Xalq qəzeti"**

# Alman alimi: Okamponun hesabatı Ermənistanın maraqlarına dəstəkdir

**"Luis Moreno Okamponun hesabatının müddəaları Ermənistanın maraqlarına güclü dəstək olduğunu göstərir və ən azı, birmənalı deyil, hətta açıq-aşkar aldadıcıdır".**




Bu barədə almaniyalı tədqiqatçı, doktor Mixael Raynhard Hessin vəkil Luis Moreno Okampoya ünvanladığı açıq məktubda deyilir.

Tədqiqatçı məktubunda vəkilə ermənilərin işlətdiyi və erməni dilinə heç bir aidiyyəti olmayan "Artsax" ifadəsinin mənşəyini izah edib və əlavə edib ki, hesabatda guya Qarabağ bölgəsinin əsasən ermənilərin məskunlaşdığı region kimi qələmə verilməsi də saxtakarlıqdan başqa bir şey deyil.

"Faktiki məzmuna gəlincə, "Artsax" sözünün (ümumiyyətlə erməni etimologiyasında olmayan sözdür) göstərdiyiniz xronoloji üfüqdə həqiqətən təsdiq oluna biləcəyi şübhə doğurur. Ermənilərin Strabonun (e.ə. 63-cü il - eramızın 23-cü ili) işlətdiyi "Orxisten" toponiminin "Artsax" ilə eyniləşdirilməsi yalnız spekulyativdir. Məndə olan məlumata görə, erməni dilinə heç bir aidiyyəti olmayan "Artsax" toponimi eramızın 5-ci əsrindən əvvəl olmamaqla geniş yayılıb. Təbii ki, nə bizim eranın əvvəli, nə də sonrakı dövrlər, o cümlədən 5-ci əsrdən sonrakı dövrlərlə bağlı dəqiq demoqrafik statistikamız yoxdur. Bu isə o deməkdir ki, bəyanatınızın yeganə interpretasiyası olan fikir – regionda əsasən ermənilərin yaşadığı ilə bağlı düşüncəniz də yalnız və yalnız spekulyativ xarakterlidir", - məktubda qeyd edilir.

Hessin məktubunda vurğulanır ki, "Artsax" termini ən azı 1921-ci ilə qədər hətta ermənilərin özləri tərəfindən də geniş istifadə olunmayıb. Bunu, məsələn, Ermənistan SSR Xalq Komissarları Sovetinin 12 iyun 1921-ci il tarixli bəyannaməsi də sübut edir.

"Bu arada regionun ənənəvi "Qarabağ" adı əsrlər boyu müxtəlif inzibati və siyasi sənədlərdə işlədilmiş və bu günə qədər də istifadə olunmaqdadır", - alman tədqiqatçı vurğulayır.

"Artsax"ın tarixi anlayışı ilə onun XX əsrdə erməni millətçiləri tərəfindən müasir reintroduksiyası arasındakı fərqi gizlətməklə, sizin töhfəniz, əslində, eramızın əvvəlindən erməni toponimik, demoqrafik, siyasi və tarixi davamlılığını təklif etmək istəyən millətçi erməni diskursunu təbliğ edir. Lakin belə bir davamlılıq yoxdur", - məktubda deyilir.

Mixael Raynhard Hess vurğulayır ki, Okamponun gəldiyi nəticəni oxuduqdan sonra onda belə bir təəssürat yaranıb ki, vəkilin hesabatı həm tarixi fonun, həm də real vəziyyətin birtərəfli ermənipərəst şərhinə əsaslanır.

Alman tədqiqatçı Okamponun Qarabağda guya "aclıq soyqırımı"nın baş verdiyi barədə dediklərini də təkzib edib:

"Doğrudanmı Qarabağın geniş dağlıq rayonları kimi münbit bir regionda, təbii sərvətlərin yetərincə olduğu, əkinçilik və heyvandarlığın mümkün olduğu münbit bir bölgədə cəmi 120 min nəfərlik (bu, Ermənistanın iddia etdiyi rəqəmdir) icmanın yayın ortasında acından ölə biləcəyinə inanırsınız?! Həmçinin məqalənizdən məlum olur ki, bu ərazilərdən ağır xəstələrin təxliyəsi üçün tədbirlər görülüb. Bu həm də o anlama gəlir ki, qida çatışmazlığından əziyyət çəkən insanlar da regiondan kənara çıxarıla bilərdi. Məqalənizdə aclığın həqiqətən olduğu və ya Qarabağda qrup halında yaşayan ermənilərin təhdid edə biləcəyinə dair hər hansı bir sübut və ya işarə yoxdur".

Mixael Raynhard Hess, həmçinin Okamponun Azərbaycanın "Laçın" sərhəd-keçid məntəqəsini yaratmasının guya "soyqırımı"na hazırlamaq vasitəsi kimi şərh oluna biləcəyi ilə bağlı iddialarının inandırıcı olmadığını söyləyib: "Bir çox ölkələrin, o cümlədən ABŞ və Avropa İttifaqının xarici sərhədləri olan ölkələrinin insan və malların qaçaqmalçılığının qarşısını almaq üçün oxşar sərhəd-keçid məntəqələri var, lakin heç kim onları soyqırımı hazırlamaqda ittiham etmir".

**"Xalq qəzeti"**

# Qaqik Voskanyan saxlanma şəraitindən razılıq edir

**Ombudsman Səbinə Əliyevanın tapşırığına əsasən, Milli Preventiv Qrupun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən növbəti başçəkmə həyata keçirilib.**



Ombudsman Aparatından "XQ"-yə bildirilib ki, MPQ-nin ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftarın, müəssisədəki saxlanma şəraitinin və təqsirləndirilən şəxslərin hüquqlarının təmini vəziyyətinin monitorinqi olub.

Başçəkmə zamanı bu ilin avqustun 16-da terror-təxribat törətmək məqsədilə Azərbaycan-Ermənistan dövlət sərhədini qanunsuz olaraq keçən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupunun üzvü Qaqik Voskanyan da qəbul edilib. Həmin təqsirləndirilən şəxsin saxlanma şəraiti, onunla rəftar, tibbi xidmətə çatımlılıq və Milli Preventiv Mexanizm mandatına uyğun digər məsələlər araşdırılıb, beynəlxalq və milli qanunvericiliyə əsasən hüquqlarının təmin edilməsi vəziyyəti öyrənilib. Adıçəkilən şəxs saxlanma şəraitindən, onunla rəftardan və tibbi xidmətdən razılığını bildirib.

# “Orda – Zəngəzurda mənim ürəyimin məzarı qalıb”...

***...Lökün köhnə məktəbinə tezcə baş vurum***
***- Görüm mənim skamyamda kim əyləşibdir?***

**Hidayət. “Həsrət” silsiləsindən.**

*(əvvəli 1-ci səhifədə)*

***– Hidayət bəy, öncə “LQ” nın oxucuları üçün özünüz barədə danışın: Siz kimsiniz, hardansınız, əsliniz-kökünüz hardandır?***

– Mən əslən Zəngəzurdanam. 44-cü ildə Mığrı rayonunun Maralzəmi kəndində doğulmuşam. Zaqafqaziyanın sovetləşməsindən sonra tarixən türklərin yaşadığı Zəngəzur Ermənistanın tərkibinə qatıldı. Ermənilər burda, olsa-olsa 1501-ci ildən sonra görünməyə başlayıblar, bu etnos İrandan köçürülməyə başlayandan sonra. Təsadüfi deyil ki, çar Rusiyası zamanında Zəngəzur uyezdi Gəncə (Yelizavetpol) quberniyasının tərkibində idi.

Hə, mən Mığrıda orta məktəbi bitirib, Bakı Universitetinə qəbul olundum. İki il doğma kənddə müəllimlik etdim. Sonra məni “Sovet Ermənistanı” qəzetinə işə dəvət etdilər. Bu, İrəvanda Azərbaycan dilində çıxan respublika qəzeti idi. İki il burada çalışandan sonra məni 1968-ci ildə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor təyin etdilər, bu zaman 24 yaşım tamam olmamışdı, heç ağlıma da gəlməzdi ki, bu teatrda 16 il işləməli olacağam.

Bir sözlə, qayıdaq Mığrıya, ömrümün ilkin çağlarına. Yadımdadır, ilk şeirlərimin birində deyirdim ki, azərbaycanlı üçün Marsa uçmaq Təbrizə getməkdən asandır. “Dəmir pərdə” illərində Cənubi Azərbaycan sadə azərbaycanlı üçün nəsə fantastika kimi bir şey idi. Uşaq vaxtı saatlarla Arazın qırağında oturar, o taydakı həyata, yollar boyu düzülən at-eşşək karvanlarına tamaşa etməkdən doymazdım. Mənə elə gələrdi ki, bu karvanlar, bu yollar yalnız Təbrizə, yaxud Ərdəbilə gedir... İllər keçdi, bir xalqı iki bölən aşılmaz sərhədlər açıldı, tikanlı məftillər dağıldı və uşaqlıq nağılları gerçək oldu.

Bu yaxınlarda İrana getmişdim – Təbrizdə də, Ərdəbildə də oldum. İndi isə yaşımın bu vaxtında uşaqlığımda olduğu kimi, vətənimin, Mığ- rının dözülməz həsrətini çəkirəm. Təbriz həsrətini ondan da ağrılı, acılı olan itirilmiş vətən həsrəti əvəz edib. Mən axı, əvvəllər heç Təbrizi görməmişdim, Təbriz mənim yeniyetməlik yuxularımın, uşaqlıq xəyallarımın şəhəri idi. Bu şəhər barədə xəyallara dalmaq xoş idi, ağrılı deyildi. Mığrıda isə hər cığır, hər daş mənə tanışdır. Ümumiyyətlə, bəzən mənə elə gəlir ki, əgər Zəngəzurda doğulmasaydım, bəlkə də heç yazıçı olmaz, əlimə qələm götürməzdim.

***– Niyə?***

– Zəngəzurda məni əhatə edən hər şey poeziya idi – qarlı zirvələr də, göllərin ayna səthi də, gül ləçəkləri kimi üz-üzə dayanan sal qayalar da, güllərin, otların min bir ətri-rayihəsi hopmuş hava da. Bu yaxınlarda Bakıda yeni şeirlər kitabım nəşr edilib. Böyük bir bölməsi elə beləcə də adlanır: “Həsrət”.

*...Gərək kəndimizdən çıxmayaydım heç,*
*Çapa verməyəydim beş-on şeirimi,*
*Özüm isidəydim öz nəfəsimlə*
*Öz doğma yurdumu, doğma yerimi.*
*Gərək öz dağımın yelli sazında,*
*Gərək öz bağçamın ilkin yazında*
*Axaydı üzümə alnımın təri,*
*Onda itərdimi babamın qəbri,*
*Onda çatlardımı atamın qəbri...*

*Gərək kəndimizdən çıxmayaydım heç!*

***– Valideynləriniz kim olub...***

– Sadə kənd adamları. Atam vəfat edəndə heç məktəbə getmirdim. Mən sonbeşiyəm, ailədə dörd bacı, üç qardaşıq. Ailəmiz iki dəfə qaçqınlıq taleyi yaşayıb. Birinci dəfə 1918-ci ildə, daşnaklar Zəngəzuru zəbt edib, azərbaycanlıları ordan qovanda. Onda dəhşətli qırğınlar olub, saysız-hesabsız insanlar məhv edilib. Bizimkilər ailəliklə qonşu Zəngilana sığınıblar. Yalnız Sovet hakimiyyəti qurulduqdan sonra öz vətənimizə qayıda bildilər. Ata yurdumuz tamamilə dağıdılıb tar-mar edilibmiş. Ancaq böyük və zəhmətsevər ailəmiz tədricən bu xarabalığı yenidən şənləndirə bilib. 18-ci ilə qədər Maralzəmi Mığrının böyük kəndlərindən biri idi. Faciəli hadisələrdən sonra kənd adamlarından kimi həlak oldu, kimi bir



daha geri qayıtmadı və böyük bir oba seyrəlib-sıxılıb 20-30 evdən ibarət oldu. 1988-ci ildə Sovet imperiyasının dayaqları laxlayanda ailəmiz, on minlərlə didərgin azərbaycanlı kimi, yenidən qaçqına çevrildi. Orda - Mığrıda nənəmin, atamın, böyük qardaşımın qəbirləri qalıb. Və bir də mənim ürəyimin məzarı qalıb orda.

***– Hidayət bəy, bu xatirələr yumağını sonsuzluğacan çözsən də qurtarmaz. Mənsə Sizdən bir şeyi soruşmaq istəyirəm: Siz Bakıya köçəndə artıq formalaşmış yazıçı, yaradıcılıq baxımından yetkin bir adam idiniz. Ermənistanda çoxlu dostlarınız vardı, erməni ziyalıları ilə şəxsi və yaradıcılıq əlaqələriniz mövcud idi. Hətta Ermənistanın əməkdar mədəniyyət xadimi fəxri adı ilə təltif edilmişdiniz. Xahiş edirəm səmimi deyəsiniz, orda özünüzü necə hiss edirdiniz, necə yaşayır, işləyirdiniz?***

– İrəvanda 18 il yaşamışam. Bu, mənim ömrümün ayrılmaz, maraqlı bir zaman kəsiyidir. Uzun müddət Ermənistan Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü, Azərbaycan Ədəbiyyatı Şurasının sədri olmuşam. Deyə bilmərəm ki, ömrümün bu illəri haqqında xatirələrim ancaq qara rəngdədir. Sevimli işim, evim, dostlarım (həm də erməni yazıçıları arasında) vardı. Ümumiyyətlə, qeyd edim ki, 1948-53-cü illərdə həmvətənlərimin Ermənistandan “könüllü”, əslində isə zorla deportasiyasına qədər bu respublikada çox güclü və nüfuzlu bir Azərbaycan - türk mühiti mövcud idi. Etnik təmizləmənin bu mərhələsində, heç şübhəsiz, Ermənistanda Azərbaycan mədəniyyətinə ciddi zərbə vuruldu. Yadımdadır, qırxıncı illərin axırlarında doğma kəndimizdə təzə ikimərtəbəli evimizi tikib qurtarmışdıq, içəridə bər-bəzək və tamamlama işləri gedirdi. Ancaq böyük qardaşımın bu işə heç əli qızmırdı. Nədənsə, əmin idik ki, yenə də bizi doğma ocaqdan didərgin salacaqlar.

O vaxtlar evimizdə ən dəhşətli kəlmə “köçürülmə” sözü idi. Sonra isə müəyyən bir sakitlik yarandı, evimizi tikib tamamladıq, normal həyata başladıq. 60-cı illərin ortalarından isə azərbaycanlıların qəlbində yenidən həyəcanlar baş qaldırdı. Bu həyəcan mənim sonralar köçmüş olduğum İrəvanın da havasında dolaşmaqda idi. Hələ o vaxtdan məlum qüvvələr şovinist-millətçi təbliğatla məşğul olurdular. “Qarabağ bizimdir”, “Türkiyənin üçdən biri bizimdir”, “Naxçıvan bizimdir” kimi şüarlar adi hal almışdı, 1965-ci ilin aprelində bu cür şüarlarla Opera Balet Teatrında mitinq keçirildi. Elə hər şey də yenidən o vaxtdan başlandı.

***– Yəni erməni ziyalılarının hamısı açıq millətçi ruhda köklənmişdi?***

– Mən belə deməzdim. Məsələyə obyektiv yanaşan adamlar da vardı. Belələri üçün, deyək ki, 1915-ci il hadisələri tarix idi. Onlar fikirləşirdilər ki, əlbəttə, bu tarixi bilmək, öyrənmək, yadda saxlamaq lazımdır, ancaq fetişləşdirmək, bayrağa çevirmək olmaz. Təəssüf ki, sağlam düşüncələr barmaqla sananırdı. Əksəriyyəti, xüsusən də xaricdən köçüb gəlmiş ermənilər zərərli ehtirasları qızışdırırdılar. Ən təhlükəli də o idi ki, konfrontasiya siyasəti tədricən rəsmi dövlət səviyyəsində aparılmağa başlamışdı. Başda duranlardan biri Hovhannes Bağdasaryan idi, Mərkəzi Komitənin ikinci katibi, sonralar mədəniyyət naziri, Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti Sədrinin birinci müavini. Həmin Bağdasaryan Ermənistan ərazisində qədim Azərbaycan toponimlərinin, coğrafi adların dəyişdirilməsi üçün kampaniya təşkil etmişdi. Ona Şəhər Partiya Komitəsinin ideologiya üzrə katibi Albert Stepanyan çox yaxından kömək göstərirdi.

60-70-ci illərdə Ermənistanda nomenklatur vəzifələrdə çalışan azərbaycanlıların sıxışdırılmasına başlandı, əvəzində həmin vəzifələrə yalnız erməni millətindən olanlar gətirildi. Bu təmayül müxtəlif formalarda özünü göstərirdi. Məsələn, 60-cı illərin ortalarına qədər həftədə 5 dəfə çıxan “Sovet Ermənistanı” qəzeti üçgünlük rejimə keçirildi, Azər-baycan dilində nəşr edilən kitabların sayı azaldıldı və s.

***– Hər halda, 80-ci illərin ortalarına qədər hər iki xalqın qarşılıqlı münasibətləri müəyyən mənada normal idi. Nəticədə qanlı qırğına çevrilən son qarşıdurma hardan, nədən başladı? Yenidənqurma illərində hamımızın şahidi olduğumuz hadisələrin kökü, əsas səbəbi nədəndir?***

– “Qarabağ milli-azadlıq” hərəkatı deyilən hərəkat daşnak partiyasının proqram şüarlarından olan “Böyük Ermənistan” ideyası ilə birbaşa əlaqəlidir. Hətta erməni şairi Hamo Sahyanın sözlərinə bəstələnmiş belə bir mahnı da var: “Dənizdən-dənizə”. Yeri gəlmişkən, Hamo Sahyan əslən Bakıdandır və Yazıçılar İttifaqına da Bakıda üzv olub. Bunu eləbelə sözgəlişi deyirəm. Bəla ondadır ki, erməni ziyalıları kütlələri “Böyük Ermənistan” xülyası ilə yoluxduraraq düşünmədilər ki, təcrübədə bu hansı faciələri doğura bilər. “Tamaşanın” məşqi çoxdan aparılırdı, 1986-cı ildə isə pərdə açıldı və tamaşa başladı. “Perestroyka” adı altında eksperiment aparanlar başa düşmək istəmədilər ki, bu tamaşanın rejissorlarını mükafatlandırmaqla və dəstəkləməklə öz eksperimentlərini əvvəlcədən uğursuzluğa düçar edirlər.

Qarabağ yenidənqurma yolunda təşkil edilmiş qəza idi. Qorbaçov şəxsiyyətdir. O, sonuncu dünya imperiyasının, totalitarizm bastionunun binasını uçurmağa nail oldu. Ancaq Qarabağ məsələsində bağışlanmaz səhvə yol verdi. Bilirsizmi, Qarabağ 1989-cu ildə faktiki olaraq Ermənistana verildi. Hətta Siyasi Büronun qərarı da hazır idi, bir neçə siyasi üzvü bu qərarın altına imza da qoymuşdu. Yaxşı ki, hakimiyyətin yuxarı eşalonu ehtiyatlı, Qafqaz regionunu bilən siyasətçilərdən xali deyildi. Onlar ölkə rəhbərliyini bu düşünülməmiş tələsik addımdan çəkindirə bildilər. Lakin Qorbaçovun tez-tez dediyi kimi, artıq proses getmişdi. Qarabağ hadisələri bütün İttifaqda zəncirvari reaksiya doğurdu, milli məsələlərin güc tətbiq etməklə həlli kimi təhlükəli meyillər meydana çıxdı. Sonra Gürcüstanda, Moldovada belə hadisələr baş verdi. Bütün bu münaqişələr İttifaqın çökməsini sürətləndirdi.

***– Bu yaxınlarda erməni şairəsi Silva Kaputikyan “LQ”nin səhifələrində çıxış edərək demişdir: “Xalqlarımız arasında səmimi münasibətlərin qaytarılması üçün mən hər şeyə razı olardım”. Sizcə, Qarabağ hadisələrində erməni və Azərbaycan ziyalılarının rolu nədən ibarət olmuşdur?***

– Silva Kaputikyan, Hovhannes Şiraz, Sero Xanzadyan, Zori Balayan, Karen Simonyan və başqaları hər iki xalqı mənəvi və fiziki uçurum həddinə gətirib çıxarmış dağıdıcı proseslərin inkişafında böyük xidmətlər göstərmişlər. Bütün bunlar mənim gözlərim önündə baş verib, dəfələrlə onlarla söhbətlər aparmış, mübahisələr etmişəm. İrəvanda yaşadığım son illər isə bizim münasibətimiz, demək olar, pozulmuşdu. Qarabağ hərəkatının ilhamçılarından son vaxtlaracan pis-yaxşı yalnız Sero Xanzadyanla söhbətləşə bilirdim. Sero Nikolayeviç, – deyirdim, – çətin vaxtlarda əlindən tutmuş, sənə həyan olmuş, atanın dostu azərbaycanlı kişi yadındadırım? Bu adamdan danışanda sən həmişə kövrələrdin, gözlərin yaşla dolardı. Sero Xanzadyan da əslən zəngəzurludur, azərbaycanlılarla ermənilərin birgə yaşadığı Gorus rayonundandır. Seroyla danışmaq olurdu, hətta onu ayrı-ayrı mövqelərdə olsaq da, fikrindən döndərmək, nəyə isə inandırmaq mümkün idi... Silva Kaputikyanla, Hovhannes Şirazla, Zori Balayanla isə bu mövzuda danışmaq, sadəcə, mənasızdır.

***– Lakin erməni ziyalıları arasında məsələyə daha real baxan adamlar da yox deyildi axı? Siz onlarla ünsiyyətdə olurdunuzmu?***

– Elələri də vardı. Ancaq bilirsinizmi məsələ necəydi? Kim ki, öz əsərlərində “Böyük Ermənistan” ideyasını tərənnüm etmirdi, kim ki, realist idi, dəhşətli hücumlara məruz qalırdı. Azərbaycanda da Ermənistanda da hamı bilirdi ki, mən Vartges Petrosyanla dost idim. O, tez-tez mənə deyərdi: İldə 365 gün var, bunun 363-ü biz dostuq. İki gün isə – sən “Neftçi”yə, mən “Ararat”a azarkeşlik edəndə biz ayrılacağıq. Mən İrəvandan gedəndən sonra da əlaqə saxlayırdıq. Vartges hesab edirdi ki, ermənilər artıq tədricən “əbədi yas” duyğusundan çıxmalıdırlar. 15-ci illə yaşamaq olmaz, nəsilləri qonşu xalqlara qarşı və konfrantansiya ruhunda tərbiyə etmək olmaz, – deyirdi. Və erməni mədəniyyətinin atası hesab edilən, erməni ədəbiyyatı və erməni yazıçıları üçün, doğrudan da, çox xidmətlər göstərmiş bu adama qarşı öz vətənində ləyaqətsiz bir kampaniya təşkil edildi.

***– Bu kampaniya özünü konkret nədə göstərirdi?***

– Əvvəla, mətbuatda Vartgesi pisləyən məqalələr peyda oldu. “Boş kətillər arxasında ad günü” romanı işıq üzü görəndən sonra isə İrəvan Universitetinin tələbələri kitabın nümayişkaranə yandırılmasını təşkil etdilər.

*(ardı var)*

***“Literaturnaya qazeta”, 3 sentyabr, 1993***

# Sönməyən ocaqdı, qordu Dərələyəz

## Ordubadın Parağa kəndi isə qaçqınlıq ünvanıdır

**Sovet rejiminin çöküşü prosesində erməni millətçiləri, xüsusən, 70 il cildini dəyişmiş daşnak tör-töküntüsü ittifaq daxilindəki və xaricdəki düşmən dairələrin açıq-gizli himayəsi ilə 1988-ci ilin əvvəllərindən Azərbaycana ərazi iddiası irəli sürdülər. Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi avantürası ilə başlayan separatçı hərəkatın ilk mərhələsində Ermənistanda yaşayan soydaşlarımızın sonuncu nəsli də tarixi torpaqlarından vəhşicəsinə deportasiya olundu və soyqırımına məruz qaldı.**



Qərbi Azərbaycandan qaçqın düşmüş yüz minlərlə soydaşımızın Vətən həsrəti, doğma yurda qayıtmaq niyyəti 35 il keçsə də, bir gün də o sönməyib. Azərbaycan dövlətinin dəstəyi ilə Qərbi Azərbaycan İcmasının başladığı doğma yurdlara qayıtmaq uğrunda hərəkat onların qəlbində gur ümid işığı yandırıb. Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrindən qovulmuş insanlar icma ətrafında toparlanaraq dədə-baba torpaqlarına qayıtmaq üçün təşkilati və siyasi-diplomatik səylərini artırıblar.

Biz də bu arzulara qoşularaq soydaşlarımızın Vətən həsrətinə son qoyacaq zamanın tezliklə yetişəcəyinə inanırıq. İnanırıq, ona görə ki, xalqımız inadlı və qəhrəman mübarizəsinin sonunda Vətən müharibəsi yolu ilə 30 il düşmən tapdağında qalmış Qarabağ və Şərqi Zəngəzur torpaqlarına geri qayıtdı.

Sonuncu deportasiyadan sonra Qərbi azərbaycanlılar Azərbaycanın müxtəlif guşələrində məskunlaşıblar. Onların bir hissəsi də Naxçıvanı özlərinə müvəqqəti məskən seçib. Qarabağ İcmasının uğurlu fəaliyyətinə elmi-ideoloji zəmini möhkəmləndir-



mək üçün AMEA Naxçıvan Bölməsinin əməkdaşları muxtar respublika da Qərbi azərbaycanlıların yaşadıqları ərazilərinə ekspedisiyalar təşkil edir, qaçqın soydaşlarımızla görüşlər keçirir. Ordubad rayonunda Qərbi azərbaycanlıların yığcam məskunlaşdığı yerlərdən biri də Parağa kəndidir. Onlar, əsasən, Qərbi Azərbaycanın Dərələyəz mahalından qaçqın düşmüş soydaşlarımızdır.

**Əzizbəyov (keçmiş Söylan) rayonunun Gomur kəndindən qaçqın düşmüş Şahlar Allahverdiyev dopdolu mülkündən əliboş çıxmağa məcbur olub.** O yalnız atası Mərdan kişinin bıçağını özü ilə gətirib və indi də onu ən qiymətli yadigar kimi qoruyur. Soydaşımızın doğma yurduna qayıtmaq üçün Tanrıya duaları bitib-tükənmir. Şair təbli Şahlar müəllim ağrı-acılı günlərin duyğu-düşüncələrini misralara belə çevirib:

*Vətən adlı sevincim də, fərəhim də*
*Ömür boyu bir şələdir kürəyimdə.*
*Qaçqın düşən el-obanın ürəyində,*
*Sönməyən ocaqdı, qordu Dərələyəz.*

*Yenə geri dönəcək o ötən çağlar,*
*Can dərmanıdı loğman-təbib bulaqlar.*
*Yurd yerləri boş qalıb, içim qan ağlar,*
*Dədəmin, babamın yurdu Dərələyəz.*

**Lala Məmmədova da Gomurdakı həyatını unuda bilmir.** Yuxularında elə hey daim doğma kəndlərindəki qayğısız günlərini görür. Uşaq vaxtlarının şən, qayğısız keçdiyindən söhbət açaraq oynadıqları oyunları xatırlayır: “Çəkuzatma”, “Mollamindi”, “Əlləməqaya”, “Qayışagirmə”. İndi o günləri xatırlayaraq gözləri dolan Lala xala doğma yurdlarından qaçqın düşərkən özləri ilə bir neçə xalı-xalça, cecim və bəzi xırda-para əşya götürə bildiklərini söyləyir, əşyaları bizə göstərərək onları qoyub gəldiyi evinin ən əziz nişanəsi kimi qoruyur.

Lala xala doğma yurdlarında icra etdikləri xalq mərasimlərimizi, o cümlədən Novruz bayramında keçirilən ayinləri şirin-şirin xatırlayır: “İlin axırında qədir tutardıq, bir evə yığışardıq. Novruzun gəlişini elliklə keçirərdik, yallı gedərdik, əsasən də İt yallısı. Oğlanlar şar, kişilər güllə atardılar. Hamı sevinclə Novruzu qarşılayardı”...

**Lala Məmmədovanın oğlu Bəylər Məmmədov 1970-ci il təvəllüdlüdür.** O da vətənli günləri unutmur, davamlı olaraq doğma yurdlarına qayıtmağı arzulayır. Bəylər müəllim Qərbi Azərbaycanla bağlı dəyərləri qoruyub-yaşatmaq yolunda yorulmaz fəaliyyətdədir. Vətən dərdi onu da şair eləyib. Duyğularını, arzularını misralara köçürür, yurd yanğısını poetik dillə ifadə edir

**Ölkə Xudayeva isə 45 yaşı olanda doğma el-obasından qovulub.** Daim Vətən həsrətli qəlbi göynəyir. O da digər kövrək qəlbli həmyerliləri kimi doğma el-obasını yuxularında görməklə qəlbini ovundurur. Vətəndən qaçqın düşərkən itkin düşən, həlak olan həmyerlilərini də xatırlayır. Ölkə nənənin qəlbinin sızıltısı gözlərindən axan yaşlarla qarışaraq ürək dağlayan bayatılara çevrilir:

*Sizi necə ağlayım,*
*Gündüz yox, gecə ağlayım.*
*Ananız yanınızda yox,*
*Yalqız necə ağlayım.*

*Könlüm bir ana istər,*
*Lap yana-yana istər.*
*Bir anayla bir bala,*
*Bir xəlvətxana istər.*

Bəli, öz yurdundan qovularaq qaçqınlıq həyatına düçar edilmiş bu insanların dərdinə şərik olsaq da, onların vətən həsrətli kövrək qəlblərinin sızıltısını hamıdan artıq bu dərddə olanlar anlaya bilər. Kövrək söhbətlərinin əvvəli də, axırı da Vətən olan bu insanlara dövlət qayğısı, yüksək səviyyədədir, ətrafdakıların qayğı-diqqəti də yetərlidir. Lakin Vətən adlı dərdlərinə yalnız Vətənin özü çarədir. Elə bu dözüm və qeyrətlə qədim mədəniyyət daşıyıcıları olan Qərbi azərbaycanlılar, nəhayət, öz doğma yurdlarına qovuşacaqlar.

***Aytən CƏFƏROVA,***
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu folklorşünaslıq şöbəsinin müdiri, dosent***

Yaddaşlarda yaşayanlar

# Əbdüllətif Bəndəroğlu işığında

## *Altı gün Dəclə – Fərat sahillərində*



**“Qərənfil” Əbdüllətif Bəndəroğlunun 1973-cü ildə Bakıda işıq üzü görmüş kitabı idi. Mən onun əvvəlki kitabları haqqında eşitməmişdim. Elə “Qırənfil”i də görmədən, haqqında eşidərək sevinmişdim. Çox sonralar, Bakıya köçəndən sonra M.F. Axundzadə adına Mərkəzi Kitabxanada oturub, təxminən, iki saat vərəqləmiş, əksər şeirlərini oxumuşdum. O zamanlar nəinki Bəndəroğlu ilə görüşəcəyimi, heç İraq torpaqlarına ayaq basacağımı da ağlıma gətirə bilməzdim.**

Sonralar görkəmli alim Qəzənfər Paşayevin televiziya verilişlərində yayılan çoxsaylı söhbətləri, müsahibələri, xüsusən, “Altı il Dəclə – Fərat sahilində” kitabı vasitəsilə Bəndəroğlunu daha yaxından tanıya bildim. Amma Bakıda onunla görüşmək mənə nəsib olmamışdı.

Dövlət radiosunda çalışdığımız illərdə (orada ərəbdilli verilişlər redaksiyası da bizimlə eyni mərtəbədə idi) kərkük-türkman ədəbiyyatı və musiqisi haqqında daha çox məlumat ala bildim. Yadımdadır, görkəmli türkman müğənnisi Sinan Səidin vəfatının birinci ildönümü münasibətilə – 1992-ci ildə ərəbdilli verilişlər redaksiyası olduqca əhatəli, biz isə beş dəqiqəlik veriliş hazırlamışdıq. Orada Bəndəroğlunun Azərbaycan sevgisi, ölkəmizin mədəniyyəti, xüsusən, folklorumuz haqqıda dəyərli fikirləri də səsləndirilmişdi. Yəni Bəndəroğlu haqqında az-çox məlumatlı idim.

Ancaq ötən əsrin sonuncu ilində İraqa gedəndə yol yoldaşımız, şair İsgəndər Etibardan türkman əsilli İraq şairi, tərcüməçi, ədəbiyyatşünas, publisist, folklorçu və araşdırmaçı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Bakı Dövlət Universitetinin fəxri doktoru Əbdüllətif Bəndəroğlu haqqında nələr eşitmədim? İsgəndər müəllim onun yaradıcılığına necə dərindən bələd imiş? Üstəlik, yol yoldaşımız hər söhbətin və ya xatirənin sonunda deyirdi ki, Bağdadda onunla görüşməyə çalışacağam. Görəcəksən, necə sadə, səmimi insandır.

Altı gün Dəclə – Fərat sahillərində olduq və... Bağdadda əvvəlcə türkman şairi Fövzi Əkrəm Tərzi, iki gün sonra isə böyük ustad Əbdüllətif Bəndəroğlu ilə görüşdük. O, Azərbaycandan gəlmiş nümayəndə heyətindən ancaq İsgəndər müəllimi şəxsən tanıyırdı. Ancaq bizimlə elə səmimi görüşüb, söhbət elədi ki, elə bildim o da Qəbələnin Mirzəbəyli kəndindəndir.

Biz İraqda 2000-ci ildə yəni bu ölkənin həm İranla sarsıdıcı müharibənin, həm də Qərbdən gələn dəhşətlərin yarasını sağaltmağa macal tapmadığı, üstəlik, ağır sanksiyalar altında yaşadığı dövrdə olmuşduq. Ona görə də istənilən xidmət sahəsində çoxsaylı problemlər var idi. Elə məskunlaşdığımız “Əl-Mansur” otelində də bir neçə dəfə elektrik enerjisinin kəsildiyinin şahidi olmuşduq (Mən otelin 20-ci mərtəbəsindən Bağdada baxmağı nə qədər sevdim, İlahi? Dəclə Bağdadın küçələrini doğrayıb keçir, körpülər isə Dəcləni doğram-doğram edirdi).

Qərəz, otelin birinci mərtəbəsində bizə xüsusi yer ayırdılar ki, Bəndəroğlu ilə görüşüb sohbət edək. Tədbirin qızğın yerində işıqlar söndü. Ərəb dili bilən yol yoldaşlarımızdan kimsə otel məsullarına alternativ işıq barədə müraciət edəndə rəhmətlik şərqşünas, ərəb dili mütəxəssisi Süleyman Babaşov dedi: “Eybi yoxdur, bizə Bəndəroğlunun işığı yetər!”

Çox doğru demişdi. Bəndəroğlu, həqiqətən, işıqlı, nurlu insan idi. Allah rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Gənc kitabxanaçı beynəlxalq təlimdə fərqlənib

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının şöbə müdiri Nübar Cəlilova Moskvada keçirilən “Kitabxanaların birlik təhsil əməkdaşlığı” mövzusunda beynəlxalq təlimdə Azərbaycanı təmsil edib. Onun Rusiya Federasiyasının paytaxtındakı çıxışı maraqla qarşılanıb və sertifikata layiq görülüb.**



Bizimlə söhbətində Nübar Cəlilova qeyd etdi ki, 25–35 yaşarası gənc kitabxanaçıların cəlb olunduğu beynəlxalq kursun ilk mərhələsi 31 may–14 iyun tarixlərində distant tədris formasında keçirilib. Təlimdə Azərbaycandan təkcə o, 100 ballıq nəticə ilə fərqlənərək, əyani formada keçirilən 2-ci tura vəsiqə qazanıb.

Bugünlərdə beynəlxalq humanitar əməkdaşlığın “Yeni nəsil” proqramı çərçivəsində təşkil edilən 2-ci mərhələdə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Serbiya, Tacikistan və Özbəkistanın kitabxanalarından 53 gənc mütəxəssis iştirak edib. Kurs çərçivəsində sahənin prioritet fəaliyyət istiqamətləri, nümunəvi bələdiyyə kitabxanalarının yaradılması, nəşrlərin rəqəmsallaşdırılması və Milli Elektron Kitabxana portalında yerləşdirilməsi üzrə Rusiyanın milli layihələri, müasir dövrdə kitabxanalar qarşısında duran vəzifələr və digər mövzular müzakirə edilib.

Təlimin həlledici mərhələsində çıxış edən Nübar xanım 95 yaşı tamam olan Respublika Gənclər Kitabxanasının daxili strukturu, fond tərkibi, fəaliyyəti, kitabxanada tətbiq edilən milli sistem – “Alisa” proqramı haqqında ətraflı məlumat verib. O, çalışdığı kitabxanada rəsmi sayt üzərindən təqdim edilən elektron xidmətlər, virtual ünsiyyət vasitələri, kitabların elektron formata keçirilməsi, əməkdaşların təlimlərə cəlb olunması prosesindən danışıb. Nübar Cəlilovaya və layihədə fərqlənən digər gənc mütəxəssislərə sertifikatlar təqdim olunub.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin sənətşünaslıq fakültəsinin məzunu olan Nübar xanımın kitablara həvəsi onu 5 il əvvəl C.Cabbarlı adına Respublika Gənclər kitabxanasına gətirib. Hələ tələbə ikən oxucusu olduğu bu kitabxanada çalışdığı müddətdə o, nümunəvi işi ilə daim fərqlənib. Soydaşımız beynəlxalq tədbirlərdə də fəal iştirak edir.

Nübar Cəlilovanın bu barədə dedikləri:

– İlk dəfə 2020-ci ildə Rusiya Federasiyasının Krasnodar vilayəti Gənclər Kitabxanasının İkinci dünya müharibəsində faşizm üzərində qələbənin 75 illiyi münasibətilə təşkil etdiyi “Qələbənin şifrəsi birlikdir” adlı beynəlxalq internet forumunda iştirak etmişəm. Bu yarışmaya hər kitabxanaçı bir oxucusu ilə qatılmalı idi. Mən və oxucum Jalə Rəhimova onlayn formada keçirilən həmin sınaqda 1-ci yeri tutaraq beynəlxalq sertifikata layiq görüldük. Budəfəki uğurum daha önəmlidir. Çünki əməkdaşı olduğum C.Cabbarlı adına Respublika Gənclər kitabxanasının 95 illiyi ərəfəsində fərqlənə bilmişəm.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***

*Köşə yazısı*

**Vecsizlik azarı insanı həyatdan qoparan əsas bəladır. İctimai biveclik milətin inkişafını əngəlləyir. Azərbaycan ziyalıları XX əsrin əvvələrində bu mərəzlə mübarizə aparırdılar. Təsadüfi deyil ki, M.Ə. Sabir “Millət necə tarac olur-olsun, nə işim var?!”,“Bizə nə?” kimi satiraları ilə biveclik problemini kodlaşdırmışdı. Nəcəf bəy Vəzirov ”Vay şələkküm-mələkküm” məzhəkəsi, Əbdürrəhim bəy Haqverdiyev “Millət dostları” pyesi ilə bu problemə toxunmuşdular.**

Nəcəf bəyin qəhrəmanları öz ömürlərini, əsasən, meyxana künclərində keçirirdilər. Kim idi bu şəxslər? Xanmirzə bəy atasından qalan sərvəti dağıtmaqla məşğuldur. Onun ətrafında “dostlar” – Balaqardaş və Almas milli mənliyi olmayan insanlardır. Onların

# Vecsizlərin nə vecinə?



məskəni hiyləgər erməni işbazı Karapetin şərabxanasıdır. Karapet bu bəylərə pullarına görə “ehtiram” göstərir, onları özünün “ağa”sı hesab edir. Bəlkə də, bu bədbəxtlər içkiyə meyil ucbatından Karapetin şirin dilinə aldanaraq bu kefxanaya gəlirlər. Karapet də, çox güman ki, yaxından tanıdığına görə onlarla yeyib-içəndə həddini aşmır.

Xanmirzə bəy “Dünya beş günlükdür, ona görə də ancaq kef çəkmək lazımdır” – düşüncəsi ilə yaşayır. O, öz məsləksizliyini belə etiraf edir: “Dünyada qəribə axmaq adamlar var. Bu gün məni tutub güclə müsəlman teatrına aparmaq istəyirdilər. Nədi ki, bəs, kasıb müəllimlərə pul yığacağıq. Mən kefimdən qalacağam, nə üçün? Kasıb uşaqlara ianə üçün… Ay özün öləsən… Yeri, ha yeri”. N. Vəzirov bu sözlərlə Xanmirzə bəyin xarakterini tam açır. O öz millətinə nəinki xeyir verir, heç teatra belə getmək istəmir. Əvəzində ona, guya, ehtiram bəsləyən Karapetin meyxanasında gününü keçirir. Onun dostu Almas da, sözsüz ki, bu cür dar düşüncə sahibidir. Onun nəzərində xalqına kömək eləmək pul tələsidir.

Bu tiplər içkidən sonra əylənmək istəyirlər. Xanmirzə bəyin çürük düşüncəsi özünü burada da göstərir. Qürrələnir ki, musiqiçilər ayağına gəlib, onu əyləndirəcəklər. Bütün bu acı mənzərəni görən Xanmirzənin dayısı Ağa Əliheydər dərin təəssüf hissi keçirir. O, müsəlmanların bu halını görməkdənsə, kar–kor olmasını diləyir. Bu obraz zamanın qismən aydın baxışla ziyalısını əks etdirir. Əliheydərin Xanmirzəyə öyüd-nəsihət verməsi isə əbəsdir. Çünki o, özündə deyil, həzz düşkününə çevrilib.

Əsərin sonluğu çox acı şəkildə bitir. Daim bəylərə öz sədaqətindən dəm vuran Karapet ayılanda meyxanadan oğurluq edəcəyindən ehtiyatlanaraq, onları sürüyüb salır otağa, qapını da bağlayır. Təbii ki, burada əsas günahkar gününü boş keçirən xanmirzələrdir.

Ə. Haqverdiyev Xanmirzənin davamçısı olan tipləri ironik şəkildə “Millət dostları” adlandırır. Onlar haqqında bəhs etdiyimiz tiplərdən fərqli olaraq, təhsil alsalar da, düşüncə baxımından kasad adamlardır. Yazıçı bu əsərini 1905-ci ildə millət erməni təcavüzü ilə üzləşən zaman yazıb. Hüquqşünas Əskər bəyin ciddi bir amalının olduğu hiss edilir. O, xeyriyyə cəmiyyəti açaraq kasıb uşaqlara ucuz kitablar vermək, məktəblər açmaq istəyir. Niyyətini evdəki qulluqçu Səfiyə deyəndə düşünür ki, o anlamaz. Lakin Səfi dərhal bunun xeyirli iş olduğunu deyərək insanların ona dua edəcəyini bildirir.

Amma Əskər bəy öz niyyətini yarımçıq ziyalı olan “obrazovolski” dostlarına anlada bilmir. Çünki içki məclisləri, eyş-işrətə meyil Firudun, Səfər, Vəli kimi bəylərin həyat tərzləri olub. Misal üçün, Firudun bəy bir rus qadınla yaxınlığı ilə fəxr edir. Əskər bəy kef məclisində ciddi söhbətə cəhd edir. O, tarixə səyahət edərək, vaxtilə İslam dünyasının elmdə öndə olduğunu, indi isə Avropaya möhtac qaldığını rəfiqlərinə çatdırır. Məclisə yığışan bəylər, guya, onun söhbətinə diqqət kəsilirlər. Səfər bəy yetim günə qalmış millətə qəyyum lazım olduğunu bildirir və öz timsalında düşüncəli adam görüntüsü yaradır. Onun ən “müdrik” fikri bu olur ki, müsəlmanlar qurbanlıq qoyunların dərisini xeyriyyə cəmiyyətinə versələr, onun büdcəsi bu yolla artar.

Ə.Haqverdiyevin burada tipin simicliyini göstərir. Səfər bəy və digərləri əllərini ciblərinə salmaq istəmirlər, amma Anna kimilərinin yolunda mallarını, mülklərini fəda edirlər. Millətin düşmüş olduğu bəla bu səhnələrdə aşkar göstərilir. Vəli bəy Firudun bəyə etiraz edəndə ortaya dava düşür. Onun Səfər bəyin millətin uşaqları üçün pul xərcləməli olduğunu deməsi, sözsüz ki, etirazla qarşılanır. Bu davanı seyr edən Səfi “Bəli, İslam qabağa getdi” deyə təəssüf edir.

Toxunulan mövzu bu gün üçün də aktualdır. Bayramlarda azacıq yardım paylayıb, televiziya ilə reklam etdirmək hələ xeyriyyəçilik deyil. Dövlətin maarifə, mədəniyyətə diqqət və qayğısı öz yerində, hər kəs də bacardığı qədər tərəqqi rifahın yüksəlməsinə töhfə verməyə çalışmalıdır. İllərlə teatrların qapısını tanımamaq, amma bayağı əsərlərə, istedadsız sənət adamlarına sponsorluq etmək heç də ziyalılıq nümunəsi demək deyil, əksinə, bivecliyə zəmin yaratmaqdır.

***Ceyhun MİRZƏLİ***

# Mədəniyyət xəbərləri

***Rusiya Federasiyasının Həştərxan şəhərində “Xəzər mövsümləri” beynəlxalq klassik sənət festivalı başlanıb. “Kultura” milli layihəsi çərçivəsində həyata keçirilən festivalın iştirakçıları 2 həftə ərzində şəhərin sakinlərini və qonaqları Xəzəryanı ölkələrin mədəniyyəti ilə tanış edəcəklər.***



Tədbir Xəzəryanı dövlətlərin simfonik orkestrinin çıxışı ilə açılıb. Orkestrin heyətinə Rusiya, Qazaxıstan, Azərbaycan, Türkmənistan və İrandan 60 musiqiçi daxildir. Baş dirijor Mixail Qolikovun rəhbərliyi ilə səsləndirilən kollektiv əsərlərin ifaçıları arasında həmyerlimiz, Xalq artisti Elçin Əzizov da olub. Konsert multimedia şousu ilə müşayiət edilib.

Festival çərçivəsində dünən Həştərxan filarmoniyasında Xəzəryanı ölkələrin bəstəkarlarının 1-ci forumu keçirilib. Bu gündən etibarən isə Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan günləri keçirilməyə başlayır. Daha sonra nüfuzlu beynəlxalq müsabiqələrin gənc qalibləri Opera və Balet Teatrında çıxış edəcəklər.

***

***Türk dünyasına aid olan 30-dan çox xalqın nümayəndələri arasında “VII Beynəlxalq Kaşqarlı Mahmut hekayə müsabiqəsi” elan olunub.***

Müsabiqə bu ilin mart ayında TÜRKSOY-un nəzdində yaradılan Yazarlar Birliyi, UNESCO və Avropa Yazarlar Birliyinin dəstəyi ilə keçirilir.

Məqsədi türkdilli ədəbiyyat üzrə is-




tedadlı qələm adamlarını aşkar etmək və onları dünyaya tanıtmaqdır.

Qeyd edək ki, Türkiyə Cümhuriyyətinin quruluşunun 100, TÜRKSOY-un yaradılmasının 30 illiyinə həsr olunan müsabiqədə qaliblər bir ay ərzində müəyyənləşdiriləcəklər və mükafatlandırma mərasimi dekabrın 4-də Ankarada keçiriləcək.

***

***Laçında “Hocazfilm” studiyası fəaliyyətə başlayır.***

Laçın səfəri ilə bağlı təəssüratını bölüşən aktyor Azər Aydəmir bu barədə jurnalistlərə açıqlamasında məlumat verib.

Aktyor deyib: “Laçın artıq kino çəkilişləri üçün ən ideal və əlverişli məkana çevrilməkdədir. Dağlar diyarının təbiəti rejissorlara orada istənilən janrda filmlər, verilişlər çəkməyə şərait yaradır”.

Studiyanın tanıtım videoçarxında çəkilmək üçün Laçına səfər etdiyini vurğulayan aktyorun sözlərinə görə, videoçarx avqustun 26-da – Laçın Şəhəri Günündə təqdim olunacaq.

***Hazırladı:***
***Ə.DOSTƏLİ,***
***“Xalq qəzeti”***



# Görkəmli kinorejissor Vaqif Mustafayevin 70 illik yubileyi keçiriləcək

**Azərbaycanın kino ictimaiyyəti milli kinematoqrafiyamızda öz dəst-xətti ilə seçilən görkəmli rejissor, ssenarist, Xalq artisti, Dövlət mükafatı laureatı, Avropa Kino Akademiyasının üzvü, professor Vaqif Mustafayevin yubileyinə hazırlaşır.**



Avqustun 28-də Nizami Kino Mərkəzində görkəmli kino xadiminin 70 illiyi münasibətilə yubiley mərasimi keçiriləcək. Yubiley tədbirlərində Avrasiya Televiziya və Radio Akademiyasının prezidenti Valeri Ruzin, Rustaveli adına Tbilisi Dövlət Akademik Teatrının məşhur aktyoru, Gürcüstanın Xalq artisti Aftandil Maxaradze və başqaları Bakıya gələcəklər.

İndidən dünyanın mötəbər kino xadimləri, görkəmli sənətkarlar yubilyara öz təbriklərini göndərirlər. Məsələn, Rusiyanın Xalq artisti, kinorejissor və aktyor "Oskar" mükafatı laureatı Nikita Mixalkov azərbaycanlı həmkarına göndərdiyi video təbrikdə ən xoş arzularını çatdıraraq, onun dünya kinematoqrafiyasında xüsusi yer tutduğunu bildirərək deyir: "Əziz Vaqif, sən əsl milli sənətkarsan. Yalnız milli olanlar ümumbəşəri ola bilirlər".

Qeyd edək ki, Xalq artisti Vaqif Mustafayev 1953-cü ildə Bakı şəhərində anadan olub. Vaqif Mustafayev yaradıcılığının ilk illərində "Mozalan" kinojurnalı üçün 50-yə yaxın satirik bədii və sənədli süjetlər çəkib. Onun quruluş verdiyi "Bəyin oğurlanması" "Yaramaz", "Nakəs", "Fransız", "Milli Bomba", "Hər şey yaxşılığa doğru", habelə ssenari müəllifi olduğu "Fəryad" və digər filmləri böyük tamaşaçı rəğbəti qazanıb.

Rejissorun parlaq yaradıcılıq nümunələri bir sıra beynəlxalq festivalda mükafatlar qazanıb.

Vaqif Mustafayev Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş 12 sənədli filmin müəllifidir. Bu ekran əsərlərindən üçü "Əsl məhəbbət haqqında", "Bir həsədin tarixi" və "Xüsusi təyinat" filmləri Moskvada keçirilən Avrasiya Teleforumunun Qran-pri mükafatına layiq görülüb. 2018-ci ildə Xocalı faciəsinə həsr olunmuş "Dərdimi çəkirəm" sənədli filmini çəkən Vaqif Mustafayev, 2022-ci ildə "Həyat, deyəsən, gözəldir" bədii və "Fikrət Əmirov" bədii-sənədli filmlərini ərsəyə gətirib. O, "Həyat, deyəsən, gözəldir" filminə görə Türkiyədə keçirilən "Korkut Ata" Beynəlxalq Film Festivalında "Türk dünyasının ən yaxşı rejissoru" adına layiq görülüb.

***"Xalq qəzeti"***

# Yaponiya AES-in suyunu okeana axıdır

## Bu qərar regionda birmənalı qarşılanmadı



*(əvvəli 1-ci səhifədə)*

2011-ci ildə stansiyada baş vermiş qəzadan sonra Yaponiyanın "Fukusima-1" Atom Elektrik Stansiyasından təmizlənən radioaktiv suyun necə utilizasiyası ilə bağlı uzun müddətdir davam edən mübahisəyə son qoyulub. Baş nazir Fumio Kişida hökumətinin qərarı ilə avqustun 24-dən etibarən stansiyanın 90 faizi dolu olan nəhəng anbarlarından su okeana axıdılır. Qeyd etmək yerinə düşər ki, MAQATE tərəfindən təsdiqlənmiş qərarı qəbul edən baş nazir Kişida ölkə daxilində və xaricində hakimiyyət üçün qaçılmaz siyasi və reputasiya itkilərinə baxmayaraq, ona yenidən baxılmayacağını açıq şəkildə bildirmişdi. Ötən bazar günü baş nazir Kişida "Fukusima-1" AES-də olmuş və onun top-menecerləri ilə görüşmüş, ertəsi gün isə Balıqçılıq Kooperativləri Assosiasiyaları Milli Federasiyasının rəhbərliyi ilə izahat xarakterli söhbət aparmışdı. Görüş zamanı yapon balıqçılar hökumətin qərarı ilə razılaşmadıqlarını bildirsələr də, Fumio Kişida qərarından dönməyəcəyini vurğulamışdı.

Çərşənbə axşamı Fukusima prefekturasına səfər edən və onun qubernatoru Masao Uçibori ilə görüşən İqtisadiyyat, ticarət və sənaye naziri Yasutoşi Nişimura qeyri-populyar qərarı izah etməyə çalışmışdı. Bununla belə, Fukusima qubernatoru mərkəzi hakimiyyət orqanlarını "prefekturanın vəziyyətini və balıqçıların fikirlərini ciddi qəbul etməyə" çağırmışdı. Həmin gün nazir Nişimuranın prefektura Balıqçılıq Kooperativ Assosiasiyasının prezidenti Tetsu Nozaki ilə söhbətinin gərgin keçməsi barədə məlumat verilir. Belə ki, Tetsu Nozaki xəbərdarlıq edir ki, balıqçılar bundan sonra da hökumətin məlum qərarına qarşı çıxacaqlar.

Fukusima prefekturasının rəhbərliyi və yerli balıqçılara yanaşı, Tokionun nüvə tullantılarının okeana atılmasına başlaması Yaponiyanın bir sıra digər regionları tərəfindən də dəstəklənmir. Məsələn, Fukusima prefekturasının qubernatoru İbaraki Kazuhiko Oiqava "Fukusima-1" AES operatorunu stansiyadan suyun axıdılması məsələsinə "korporativ idarəetmə məntiqinə görə yox, balıqçıların mövqeyini nəzərə alaraq" yaxınlaşmağa çağırıb. Miyaqi prefekturasının qubernatoru Yoshihiro Murai da yerli balıqçıların və fermerlərin gələcək taleyindən narahatlığını ifadə edərək, oxşar bir açıqlama verib.

"Kyodo" agentliyinin məlumatına görə, 2023-cü maliyyə ilində (2024-cü il martın 31-də başa çatır) "Fukusima-1" AES-dən okeana təxminən 31,2 min ton təmizlənmiş su axıdılacaq. Suyun tərkibindəki tritium konsentrasiyasının ümumi səviyyəsi təxminən, 5 trilyon bekkerel olacaq. Bu suyun 30 il ərzində mərhələli şəkildə okeana axıdılması planlaşdırılır və MAQATE prosesə nəzarət etmək niyyətindədir. İlkin hesablamalara görə, Yaponiya hakimiyyəti və TEPCO enerji şirkəti 2028-ci maliyyə ilinə qədər "Fukusima-1" AES-də reaktorların soyudulması zamanı əmələ gələn radioaktiv suyun yığılma həcmini gündə 140 tondan 50-70 tona endirməyi planlaşdırır.

MAQATE-nin baş direktoru Rafael Qrossi tənqid atəşi altında qalan Yaponiya hakimiyyətini dəstəkləmək üçün yeni bəyanatla çıxış edib. "MAQATE-nin su tullantılarının təhlükəsizliyinin qiymətləndirilməsi üzrə işinə başladığı gündən mən Koreya Respublikası və digər ölkələrlə bu istiqamətdə mühüm fəaliyyətlərimiz barədə məlumat vermək üçün fəal əməkdaşlıq etmişəm. İctimaiyyətin haqlı narahatlığını aradan qaldırmağın yegane yolu onları məlumatlandırmaqdır. Əldə edilən razılaşma qarşıdakı həftələr, aylar və illərdə şəffaflığın vacibliyini vurğulayır", - deyə Rafael Qrossi bildirib. Suyun axıdılması prosesini həyata keçirən "Tokyo Electric Power" şirkəti də təmizlənmiş suyun ətraf mühit üçün tamamilə təhlükəsiz olduğunu vurğulayır.

Buna baxmayaraq, narazılıqları aradan qaldırmağa hesablanmış bu məlumatlar beynəlxalq qalmaqalın baş verməsinə mane ola bilmədi. Gözlənildiyi kimi, ən böyük narazılıq da Pekindən gəldi. Çinin xarici işlər nazirinin müavini Sun Veydun çərşənbə axşamı Yaponiya səfiri Hideo Tarumini Yaponiya hökumətinin qərarı ilə əlaqədar nəzirliyə çağıraraq ölkəsinin narazılığını bildirib. Eyni zamanda, Çin Xarici İşlər Nazirliyinin şərhində qeyd edib ki, "Okean bütün bəşəriyyətin ümumi mülkiyyətidir və "Fukusima" AES-dən suyun zorla okeana axıdılmasına başlamaq beynəlxalq ictimai maraqlara məhəl qoymayan son dərəcə eqoist və məsuliyyətsiz bir hərəkətdir". Çin artıq real addımlar da atmağa başlayıb. Belə ki, ötən çərşənbə axşamı Honq-Konq hökuməti avqustun 24-dən etibarən Yaponiyanın on prefekturasından dəniz məhsulları idxalına qadağa qoyub. Məlumata görə, 2022-ci ildə Honq-Konqa dəniz məhsulları ixracı təxminən 536 milyon dollar təşkil edib. Çinin digər xüsusi inzibati bölgəsi olan Makaonun hakimiyyət orqanları da Yaponiyanın on prefekturasından bir sıra ərzaq məhsullarının idxalına qadağa qoyulduğunu elan edib. Bu isə yapon balıqçılarının böyük məbləğdə maliyyə itkilərilə üzləcəklərindən xəbər verir.

Cənubi Koreya uzun müddət suyun okeana atılmasına qarşı çıxırdı, lakin MAQATE-nin belə addımları təsdiqləməsindən sonra fikrini dəyişdi. Eyni zamanda, baş nazir Han Dok-su Yaponiyanı şəffaf olmağa çağırıb. Tayvanda da həyacan təbili çalırlar, adada Çinlə münaqişə fonunda ekoloji böhranın baş verəcəyindən qorxurlar. Taybeydə narahatdırlar ki, Yaponiyadan axıdılan suyun bir hissəsi Tayvana doğru istiqamətlənəcək və 1-2 il sonra ada sahillərinə çatacaq. Bu baxımdan, Tayvanın qiymətləndirməsinə görə, adanın yaxınlığındakı su bölgəsində tritium konsentrasiyası dörd ildən sonra pik həddə çatacaq.

***S.ELAY, "Xalq qəzeti"***

# BİLDİRİŞ

"Azəristiliktəchizat"ASC-nin istilik şəbəkələrində qəza-təmir və yenidənqurma işlərindən sonra asfalt örtüyünün bərpasının satın alınması məqsədilə 2023-cü il iyulun 12-də elektron portal vasitəsilə keçirilmiş açıq tenderin nəticələrinə əsasən "Xezer-Construction" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il avqustun 23-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

**İDMAN**

# Maqnus Karlsen Dünya kubokunun sahibi oldu

## Azərbaycan şahmatçısı İddiaçılar Turnirinə vəsiqə qazandı

**Dünyanın idman mərkəzlərindən biri olan Azərbaycanda daha bir mötəbər yarış – şahmat üzrə Dünya kuboku uğurla başa çatdı. 25 gün əvvəl start götürən və qadınların da yarışı daxil olmaqla, ümumilikdə, 309 oyunçunun qatıldığı bu möhtəşəm şahmat bayramını minlərlə insan Bakıdan birbaşa onlayn izlədi.**



Bu nüfuzlu turnirin tapıntısı olan Azərbaycan şahmatçısı Nicat Abasovun bir-birindən maraqlı oyunları insanları heyran etdi. Azərbaycan şahmat məktəbi, ölkəmizin idman potensialı, onun ənənələri təqdir edildi.

Yarışın qalib və mükafatçılarını müəyyən edən son günün tay-breklərini insanlar xüsusi maraq və həyəcanla izlədilər. Məhz N.Abasov, M.Karlsen, F.Karuana və Rameşbabu Praqanqhaa dünyanın ilk dördlüyü demək idi və bütün diqqət ən güclü cütlüklərin qalib adı uğrunda mübarizəsinə yönəlmişdi.

Dünya reytinqinin 3-cüsü Fabiano Karuana ilə bürünc medal uğrunda qarşılaşmada Nicat Abasov uduzsa da, adını şahmat tarixinə yazdı. Nicat müstəqil Azərbaycanda doğulub bu səviyyədə uğur qazanan ilk şahmatçımızdır. İstedadlı zəka ustasının timsalında artıq yeni nəsil şahmatçıların yetişməsini görmək qürurvericidir. FİDE prezidenti də Nicat Abasovun Dünya kuboku yarışında bu cür parlaq çıxışının böyük sürpriz olduğunu vurğulayıb. O qeyd edib ki, bu, Azərbaycan şahmatı üçün uğurlu nəticədir.



Azərbaycan Şahmat Federasiyasının 1-ci vitse-prezidenti Faiq Həsənov "Xalq qəzeti"nə açıqlamasında Nicat Abasovun güclü potensiala malik şahmatçı olduğunu bildirdi: "Nicat Abasov çox gözəl oyun nümayiş etdirdi. Ən əsası da İddiaçılar Turnirinə vəsiqə qazandı. Şahmatçımız gələn il keçiriləcək İddiaçılar Turnirində iştirak edəcək. Yarışın qalibi Maqnus Karlsen oldu. O, bu yarışda iştirak etsə də, indiyədək qalib titulunu qazana bilməmişdi".

Turnirdə Hindistan şahmatçılarının çıxışını xüsusi vurğulayan qurum rəsmisi qeyd etdi ki, səkkizdəbir finalda iştirakçıların 4-nün bu ölkənin təmsilçisi olması diqqətəlayiqdir. Faiq Həsənov onu da bildirdi ki, Dünya kuboku yarışı ölkəmizdə yüksək səviyyədə, maraqlı mübarizə şəraitində keçib. Şahmatçıların öz potensiallarında maksimum istifadə etmələri üçün hər bir şərait yaradılıb.

Milyonların kumiri, karyerası boyu saysız-hesabsız yarışların qalibi olmuş beşqat dünya çempionu Maqnus Karlsen tay-brekdə hindistanlı Praqnanandha üzərində qələbə qazanaraq Dünya kubokuna sahib olub.

Qadınlar arasında isə FİDE-nin bayrağı altında çıxış edən Aleksandra Qoryaçkina birinci yeri tutub. Rusiyalı idmançı finalda bolqarıstanlı Nurgül Salimovanı məğlub edib. Ukraynalı Anna Muziçuk isə üçüncü pillədə qərarlaşıb.

# Dünya çempionatında Azərbaycanın tarixi uğuru

## Nigar Nəsirova qızıl medal qazanıb

**Güllə atıcılığı üzrə Azərbaycan milli komandası 53-cü dünya çempionatında tarixi nəticə qazanıb. Dünən 25 metr məsafəyə mərkəzə tapançadan atəşaçma üzrə kişi və qadınların yarışı keçirilib. Qadınlar arasında bütün rəqibləri üstələyən Azərbaycan atıcısı Nigar Nəsirova birinci yerə layiq görülüb.**



Gümüş medalın sevincini digər təmsilçimiz Nərminə Səmədova yaşayıb. Üçüncü yeri isə Monqolustandan olan atlet Xişiqderger Enxbat tutub.

Kişilərin mübarizəsində Almaniyanı təmsil edən Kristian Reytz qızıl medal qazanıb. Gümüş medalı Estoniyanı təmsil edən Peeter Olesk aktivinə yazıb. Sloveniya atleti Joze Çeper bürünc medala yiyələnib. Bu yarışın kişilərin komanda növündə Almaniya birinci, Koreya ikinci, Hindistan üçüncü olub.

Mükafatlandırma mərasimindən sonra media nümayəndələrinə açıqlama verən Nigar Nəsirova qızıl medal qazanacağını gözləmədiyini deyib: "Bütün diqqətimi yarışa və işimə yönəltmişdim. Fikrim ancaq bu idi. Nəticə barədə heç nə düşünmürdüm. Yarışın Bakıda keçirilməsi bizim üçün çətinlik yaradır. Çünki hamı istəyir ki, qələbə qazanaq. Elə olanda gərginlik olur. Həm özümüz birinci olmağı hədəfləyirik, həm də insanları sevindirmək istəyirik".

İdmançı qeyd edib ki, atıcılığa 2004-cü ildə İradə Aşumova Afina Yay Olimpiya Oyunlarında bürünc medal qazandıqdan sonra məşğul olmağa başlayıb. 3 il sonra zədə ilə üzləşdiyi üçün uzun müddət idmandan uzaq qalıb. 2016-cı ildə isə yenidən məşqlərə başlayıb. 2017-ci ildə Sloveniyada keçirilən Avropa çempionatında qarışıq komanda yarışında bürünc medal alıb. Həmin il İslam Həmrəyliyi Oyunlarında fərdi yarışda eyni uğura imza atıb. Beynəlxalq yarışlarda Həm Ruslan Lunyovla, həm də fərdi olaraq medallar qazanıb. Ötən il Misirdə keçirilən dünya çempionatında 50 metr məsafəyə atəş açma üzrə yarışda da bürünc medala sahib olub.

Qeyd edək ki, Nigar Nəsirovanın dünya çempionatında qazandığı qızıl medal indiyədək mundiallarda əldə edilmiş ən böyük nailiyyətdir. Xatırladaq ki, bundan əvvəl Zemfira Meftəhətdinova 1995 və 2001-ci illərdə skeet atıcılığı üzrə dünya çempionatlarının qalibi adını qazanıb.

***L.QURBANOVA, "Xalq qəzeti"***

# Avropa Liqası: "Olimpiya" – "Qarabağ" 0:2

**UEFA Avropa Liqasının pley-off mərhələsində "Olimpiya" – "Qarabağ"qarşılaşması baş tutub.**



Ağdam təmsilçisi rəqibi üzərində inamlı qələbə qazanıb – 2:0. Sloveniyada baş tutan matçın 32-ci dəqiqəsində "Qarabağ"ın futbolçusu Kevin Medina, 45-ci dəqiqəsində Leandor Andrade fərqləniblər.

Komandalar arasında cavab matçı avqustun 31-də Bakıda keçiriləcək.

***"Xalq qəzeti"***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 181 (30297) 25 avqust 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Cüdoçularımız dünya çempionatında

**Xorvatiyanın paytaxtı Zaqrebdə yeniyetmələr arasında keçirilən cüdo üzrə dünya çempionatının ikinci günündə Azərbaycan komandası böyük uğurla çıxış edərək daha 2 gümüş medal qazanıb.**



Oğlanların yarışında Məhəmməd Musayev (60 kq) və Əbil Yusubov (66 kq) ikinci yeri tutublar.

Qeyd edək ki, Azərbaycan cüdoçuları çempionatın ilk günündə 1 qızıl, 1 gümüş və 1 bürünc medala sahib olublar. İki günün nəticəsinə görə cüdoçularımız oğlanlar arasında 4 çəki dərəcəsinin hər birində medal əldə ediblər.

## Paris Olimpiadasına daha bir lisenziya



**Macarıstanın paytaxtı Budapeştdə təşkil olunan atletika üzrə dünya çempionatında milli komandamızın üzvü Anna Skidan uğurla çıxış edib.**

Çəkicatma üzrə təsnifat mərhələsində iştirak edən idmançı 77.10 metr nəticə ilə final mərhələsinə yüksəlib. Azərbaycan rekorduna və özünün şəxsi nəticəsini yeniləyən atletimiz Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

## İdman festivalı: Komandamız daha 7 medal qazanıb

**Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında Azərbaycan idmançıları növbəti medalları qazanıblar.**

Gənclər və İdman Nazirliyindən "Xalq qəzeti"nə bildirilib ki, dünən təmsilçilərimiz 7 medal qazanıblar. Komandamızın aktivinə qızıl medalları qadın güləşçimiz Gültəkin Şirinova (53 kq), Mərziyyə Sadıqova (72 kq), boksçu Nicat Hüseynov (51 kq) yazdırıblar. Boksçularımız Fərhad Şeydayev (75 kq), Tural Sarıyev (51 kq), Manjona Sariyeva (50 kq) ikinci, qadın güləşçimiz Birgul Soltanova (65 kq) 3-cü yeri yeri tutublar. Bununla da komandamızın əldə etdiyi medalların sayı 15-ə çatıb.

Qeyd edək ki, avqustun 31-dək davam edəcək Beynəlxalq Universitet İdman Festivalı Yekaterinburq şəhərinin 300 illik yubileyinə həsr edilib. 36 ölkədən müxtəlif universitetlərin tələbələri 14 idman növündə qüvvələrini sınayırlar.



Festivalda Azərbaycanı 10 təhsil ocağından 54-ü kişi 15-i qadın olmaqla 69 idmançı təmsil edir. Təmsilçilərimiz 8 idman növündə - badminton, stolüstü tennis, boks, güləş, taekvondo, futzal, üzgüçülük, sambo üzrə yarışırlar.

## 2 boksçumuz Avropa birinciliyinin finalında

***Sloveniyanın Maribor şəhərində məktəbli boksçular arasında Avropa birinciliyində yarımfinal döyüşləri keçirilib.***

Azərbaycan Boks Federasiyasından "Xalq qəzeti"nə bildirilib ki, millimizin 2 idmançısı finala yüksəlib. Şahin Aslanov (52 kiloqram) gürcüstanlı Sandro Kapanadzeni 5:0 hesabı ilə məğlub edib. Boksçumuz həlledici görüşdə Nikolay Nikolayevlə (Bolqarıstan) üz-üzə gələcək.

Səftər Məmmədzadə (90 kiloqram) isə yarımfinal döyüşünün taleyini ilk raundda həll edib. Təmsilçimiz ermənistanlı Aram Tumanyanı nokaut edərək tam üstünlüklə qələbə qazanıb. Məmmədzadə çempionluq üçün Yosip-Vladislav Kozakeviçlə qarşılaşacaq.

Digər boksçularımızdan Adil Zalov (63 kiloqram) və İsmayıl Vəliyev (70 kiloqram) Avropa birinciliyini bürünc medalla başa vurub.

Qeyd edək ki, Avropa birinciliyində finallar avqustun 25-də keçiriləcək.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

Texnologiya yenilikləri




## "4Sİ Akademiyası" 10 min adama 700 təlim keçəcək

**İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondu və ABŞ-ın "Coursera" şirkəti ilə birgə yaradılan "4Sİ Akademiyası" layihəsi çərçivəsində keçiriləcək təlimlərə qeydiyyat başlanıb.**

Təhsilin İnkişafı Fondundan bildirilib ki, sentyabrın 7-dək qeydiyyatdan keçməklə ilk müraciət edən 10 minə yaxın şəxs Dördüncü Sənaye İnqilabı texnologiyaları sahəsindəki ixtisaslar üzrə bilik və bacarıqlarını 700-dən çox pulsuz təlimlərə qatılmaqla artıra biləcək.

Kursları uğurla bitirən şəxslər sonda oxuduqları proqrama uyğun olaraq "Coursera" platforması tərəfindən sertifikat ilə təltif olunacaqlar.

***"Xalq qəzeti"***

## Süni intellekt məmurları da əvəz edəcək

**Beynəlxalq Əmək Təşkilatının məlumatında bildirilib ki, yaxın gələcəkdə süni intellekt ofis işçilərini əvəz edəcək.**



Təşkilatın nümayəndəsi deyib: "Ofis işi süni intellekt texnologiyalarından ən çox təsirlənən kateqoriya kimi görünür".

BƏT-yə görə yeni texnologiyanın tədbiqi iş yerlərinin ixtisar edilməsinə deyil, əksinə, müxtəlif sahələrdə işgüzarlığın artırılmasına, əməyin yüngülləşdirilməsinə dəstək olacaq.

***F. SALMANOVA, "Xalq qəzeti"***

Maraq dünyamız

## Dünyanın ən yaxşı kitabxanası

**Beynəlxalq Kitabxana Assosiasiyaları və Müəssisələri Federasiyası Barselonadakı "Biblioteca García Márquez"i 2023-cü ildə dünyanın ən yaxşı kitabxanası adlandırıb.**



İspaniya mətbuatı yazır ki, Barselona kitabxanası şəhərin San-Marti rayonunda yerləşir və heyranedici memarlıq və innovativ dizaynı ilə fərqlənir. "Biblioteca García Márquez" İspaniyada beynəlxalq miqyasda tanınan ilk kitabxanadır. O, 2022-ci ilin may ayında açılmasına baxmayaraq, hamını dərhal heyran etməyə nail olub. Açılış ilində kitabxana memarlıq sahəsində Barselona şəhər mükafatına layiq görülüb və nəticələri 2023-cü il oktyabrın 19-da məlum olacaq memarlıq və dizayn sahəsində FAD mükafatına iddialıdır.

Qeyd edək ki, "Biblioteca García Márquez"in binası 6 mərtəbəlidir, sahəsi 4 min kvadratmetrdir, orta hesabla gündə onu təxminən min oxucu ziyarət edir. Burada tez-tez konfranslar və dünyanın müxtəlif guşələrindən olan yazıçılarla görüşlər keçirilir.

***Zülfiyyə ZİYA, "Xalq qəzeti"***

Ağlagəlməz hadisə

## Ayı evə girdi və yuxuya getdi...



**ABŞ-ın Kaliforniya ştatında ayı bir nəfərin evinə girərək çarpayıda yuxuya gedib.**

Ev sahibinin sözlərinə görə, o, göldə qayıq sürərkən mənzilinə kiminsə girməsi barədə telefonuna bildiriş gəlib.

Daha sonra kişi uzaqdan evin kameralarına baxıb və nəhəng ayının evin ətrafında gəzdiyini görüb.

Bir müddət sonra heyvan amerikalının çarpayısında yuxuya gedib. Yırtıcını xüsusi sirenlə oyatmağa qərar veriblər. Səs-küy ayını oyadıb. Sonra o, masada qalan bütün yeməkləri yeyərək, pəncərəni sındırıb və evi tərk edib.

***"Xalq qəzeti"***

Sənət inciləri

## Rənglər dünyasında "Toya hazırlıq"

**Vəcihə Səmədova cəmi 41 il ömür sürməsinə baxmayaraq, adını Azərbaycan incəsənəti tarixinə ilk peşəkar rəngkar qadın kimi yazmağı bacarıb. O, "Kür qırağında", "Mahnı", "İntizarda", "Toya hazırlıq", "Qoşqar yaylağında", "Göygöl", "Aktrisa Leyla Bədirbəylinin portreti" və başqa bir-birindən gözəl rəsm əsərlərinin müəllifidir.**



Vəcihə xanımın əsərlərində milli adət-ənənələrimiz öz parlaq təzahürünü tapıb. Belə əsərlərdən biri isə "Toy günü" və ya "Toya hazırlıq" tablosudur.

Rəssam burada kənd yerlərində toya hazırlıq mənzərəsini əks etdirib. Bir neçə qadının əhatəsində öz toyuna hazırlaşan gəlinin hiss və həyəcanı, onun mənalı gözləri insanı valeh edir. Ətrafdakı qızların isə həsəd dolu baxışları tablonu seyr edənlərin nəzərindən qaçmır.

Qeyd edək ki, istedadlı fırça ustası insan kimliyindəki ən incə məqamları kətana köçürməyi bacaran sənətkar kimi tanınıb.

***Leyla HADİ, tələbə-jurnalist***

Sağlamlıq

## Cavanlıq iksiri – Tibet zirinci

**Quşüzümü ilə qodjini bəzən səhv salırlar, onlar xarici görünüşcə biri-birinə bənzəsələr də, fərqli xüsusiyyətlərə malikdirlər. İngilislər bu bitkini qodji adlandırsa da, "Tibet zirinci" kimi də tanınır.**



Cavanlaşdırıcı və arıqladıcı təsirlərinə görə, Hollivud ulduzları qida rasionlarında əlavə və tamamlayıcı vasitə kimi ondan istifadə edirlər. Bəzi pəhrizlərdə bu zirincin miqdarının 50 qram, bəzilərində isə 1 xörək qaşığından artıq olmaması göstərilir. Tərkibindəki antioksidantların miqdarına görə bitkilər arasında birinci yerdədir. Qaragilə ilə müqayisədə ondakı antioksidantların miqdarı 25 faiz, narla müqayisədə 2,5, çiyələklə müqayisədə 10 dəfə çoxdur.

Alimlər qiymətli dərman bitkisi kimi Tibet zirincinin xərçəng xəstəliyi əleyhinə güclü təsirini aşkar ediblər. Tədqiqat nəticəsində aydın olub ki, zirinc giləmeyvələrindən müntəzəm istifadə edilməsi xərçəng və Alzheymer xəstəliyinin, həmçinin şəkərli diabetin yaranma ehtimalını azaldır. Onun giləmeyvələri ürək-damar sisteminə də müsbət təsir göstərir. Zirinc əhval-ruhiyyəni yaxşılaşdırır, depressiyanın qarşısını alır, maddələr mübadiləsini sürətləndirir, qocalmanı ləngidir, yuxunu möhkəmləndirir.

Lakin ilin isti vaxtlarında, həmçinin şəkərli diabet, hipertoniya və arı məhsullarına qarşı allergiyası olanlar ondan istifadə edərkən ehtiyatlı olmalıdırlar.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

Proqnoz

## Yayın qorabişirənində leysan və güclü külək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **avqustun 25-də Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Gecə 20-25°, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 27-32°, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## Rusiyanın ilk elektrik təyyarəsi



**Bu barədə Rusiyanın Sənaye və Ticarət Nazirliyi istehsal sənayesinin inkişafı strategiyasına istinadən məlumat yayıb.**

Qeyd olunub ki, belə bir təyyarənin yaradılması aviasiya sənayesinin prioritet məhsulları qrupuna daxildir. Həmçinin bu qrupa səsdən sürətli sərnişin təyyarəsi, yüngül biznes jetləri və ağır helikopterin yaradılması daxildir.

Daha əvvəl Rusiya Baş nazirinin müavini, sənaye və ticarət naziri Denis Manturov bildirib ki, Rusiya 2028-2030-cu illərdə öz uzaqmənzilli təyyarələrini yaratmağı planlaşdırır.

***"Xalq qəzeti"***

**ALLAH RƏHMƏT ELƏSİN**

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova anası

**GÜLBİKƏ BABAŞOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4868
SİFARİŞ 2123
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00